YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 fevral 2026-cı il, cümə

№ 028 (7095)

Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezidentdən yol xəritəsi...

## Yeni rəqəmsal arxitektura quruculuğu üçün



Bax səh. 2

## Cənubi Qafqazda sülh reallığı

Bax səh. 3

### Strateji əməkdaşlığa söykənən qarşılıqlı etimad

Yaxın tərəfdaşlıq, qarşılıqlı hörmət və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas konseptual prioritetlərini təşkil edir. Rəsmi Bakı bütün qitələrlə, müxtəlif siyasi və iqtisadi birliklərlə paralel şəkildə əlaqələr qurmağa və bu əlaqələri qarşılıqlı maraqlar əsasında inkişaf etdirməyə xüsusi önəm verir. Azərbaycanın xarici siyasət xəttində əsas prinsiplər suverenliyə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq, beynəlxalq hüquqa sadiqlik və bərabərhüquqlu əməkdaşlıqdır. Məhz bu prinsiplər ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunu şərtləndirən başlıca amillərdəndir.

Bu kontekstdə Azərbaycanın ərəb dünyası ilə münasibətləri xüsusi yer tutur. Tarixi, mədəni və dini bağlarla yanaşı, müasir dövrdə siyasi, iqtisadi, humanitar və enerji sahələrində...

Bax səh. 4

### Avrasiyanın strateji körpüsü



Bax səh. 5

### Qərbi azərbaycanlıların qayıdışına dəstək verilməlidir!

Hazırda Cənubi Qafqazda dayanıqlı sülhün və sabitliyin təmin olunması üçün əlverişli mühit yaranıb. Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra tərəflər arasında etimadın formalaşması üçün addımlar atılır. Hər iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri, ticarət əlaqələrinə başlanılması, Zəngəzur dəhlizi ilə bağlı müsbət atmosfer pozitiv məqamlardan xəbər verir. Yəni tərəflər onilliklər boyu davam edən münaqişənin başa çatmasından sonra sülh şəraitində yaşamağı öyrənirlər.

Lakin müəyyən xarici dairələr regionumuzda sülhün təmin olunmasında...

Bax səh. 4

## “Sövdələşmə”nin gizlinləri ifşa olundu...

### DTX Ramiz Mehdiyev, Abbas Abbasov, Əli Kərimli və digərləri barədə məlumat yayıb

Bax səh. 5

### Valyuta Fondu islahatlara dəstək verəcək

Bax səh. 6

### Ankara - Afina: Buzlar əriyir

Bax səh. 6

### Tbilisi - Brüssel xəttində daha bir qırılma

Bax səh. 6

### Yazılmamış epopeyanın xülasəsi

Bax səh. 7

### Aİ Macarıstana “müharibə” elan edir?



Bax səh. 7

### “Arctic Sentry” başladı...



Bax səh. 7

# Prezidentdən yol xəritəsi...



## Yeni rəqəmsal arxitektura quruculuğu üçün

Prezident İlham Əliyevin sədrliyi ilə “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə ölkəmizin ortamüddətli dövrdə əsas strateji hədəflərindən biri olan rəqəmsal inkişafa çatmaq üçün yeni prioritetləri müəyyənləşdirmək, bu istiqamətdə dövlət quurmlarının fəaliyyətinin koordinasiyası və zəruri tədbirlərin icrasını tezləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Müşavirədə diqqətə çatdırılan əsas məqamlar da məhz rəqəmsal inkişafla bağlı olan məsələlərin vaxt itirmədən icrasını nəzərdə tuturdu. Çünki gələcək inkişafın əsas atributu texnoloji və rəqəmsal inkişafdır və bütün dünya dövlətlərinin bu amilə xüsusi önəm verdiyi bir vaxtda rəqabətdə geri qalmaq olmaz. Dövlət başçısının da vurğuladığı kimi, dünyada gedən meyillər, trendlər bəllidir: “Bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Azərbaycanda bu istiqamətdə müəyyən işlər görülüb, bu barədə bu gün danışılacaq. Ən önəmlisi gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyimizdir”.

## 4-cü Sənaye İnqilabının tələbləri

Dünya artıq 4-cü Sənaye İnqilabı mərhələsinə daxil olub və son illərdə bu transformasiya daha da dərinləşib. Rəqəmsallaşma iqtisadi artımın, idarəetmə mexanizmlərinin və sosial münasibətlərin əsas müəyyənedici amilinə çevrilib.

Beynəlxalq təşkilatların son hesabatları bu reallığı təsdiq edir. BMT-nin “Rəqəmsal İqtisadiyyat Hesabatı 2024”ə görə, rəqəmsal texnologiyalar qlobal iqtisadi inkişafda həlledici rol oynayır, lakin ekoloji və sosial aspektlər nəzərə alınmadıqda yeni risklər yaradır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) “Rəqəmsal İqtisadiyyat İcmalı 2024” hesabatına əsasən, üzv ölkələrdə İKT sektoru 2013-2023-cü illərdə orta hesabla illik 7,6 faiz böyümüş və bu göstərici ümumi iqtisadi artımı 3 dəfədən çox üstələyib. Dünya İqtisadi Forumu isə göstərmişdir ki, 2027-ci ilə qədər mövcud bacarıqların 44 faizi yenilənməlidir. Stanford Universitetinin “AI Index Report 2025” sənədinə görə, 2024-cü ildə respondent təşkilatların 78 faizi süni intellekt (AI) texnologiyalarından istifadə edib, yaradıcı AI sahəsinə qoyulan şəxsi investisiyalar isə 33,9 milyard ABŞ dolları olub.

Texnoloji infrastruktur və qabaqcıl texnologiyalara sərmayələr də rəqəmsal transformasiyanın həlledici şərtlərindəndir. 2021-ci ildə bu sahəyə qlobal sərmayələrin həcmi 650 milyard ABŞ dolları təşkil edib. 2035-ci ilədək isə onun 1 trilyon ABŞ dollarını üstələyəcəyi proqnoz edilir. Sinqapur dövlət-özəl tərəfdaşlığı və kibertəhlükəsizlik siyasəti hesabına Asiyanın rəqəmsal mərkəzinə çevrilməyi hədəfləyir, Böyük Britaniya isə rəqəmsal infrastrukturun möhkəmləndirilməsini prioritet kimi müəyyən edir. İstehlakçı davranışları da köklü dəyişikliklərə məruz qalır. DataReportalın “Digital 2025” hesabatına görə, e-ticarət illik 15-25 faiz artım tempi ilə inkişaf edib, fərdiləşdirilmiş xidmətlər, mobil ödənişlər və elektron pul kisələrinə tələbat əhəmiyyətli dərəcədə yüksəlir. Bununla yanaşı, qlobal investisiya riskləri də diqqət mərkəzində qalır. BMT-nin Ticarət və İnkişaf Konfransının “Dünya İnvestisiya Hesabatı 2025” sənədinə əsasən, 2024-cü ildə dünya üzrə birbaşa xarici investisiya axınları 11 faiz azalıb. Bu fakt rəqəmsal infrastruktur layihələrinin maliyyələşməsində dövlət-özəl tərəfdaşlıqlarının rolunu artırmağı və investisiya təşviqi mexanizmlərinin təkmilləşdirilməsini zəruri edir.

## Rəqəmsallaşmanın uğurlu modelləri - “Hökumət buludu”, “SİMA”, “ASAN xidmət”...

Dövlət idarəçiliyində rəqəmsallaşmanın genişləndirilməsi məqsədilə “Hökumət buludu” yaradılmış, dövlət informasiya sistemlərinin və elektron xidmətlərin vahid platforma üzərindən inteqrasiyası təmin edilib. Bu yanaşma dövlət idarəçiliyində xərclərin azaldılmasına, xidmətlərin optimallaşdırılmasına və dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə şərait yaradıb. Ölkənin data mərkəzi, yəni “dövlət cloudu” (“Hökumət buludu”) tam şəkildə qurulub. Ehtiyat və əsas olmaqla Bakı və Yevlax şəhərlərində biz prosesə başladıqda təxminən 50 dövlət müəssisəsi burada öz rəqəmsal ehtiyatlarını yerləşdirirdisə, artıq bu gün bu rəqəm 270-ə çatdırılıb. “SİMA” Biometrik İmzanın təqdim edilməsi ilə 4 milyon istifadəçi, nadir istifadəçi artıq son üç il ərzində bu imzadan istifadə edir. “SİMA”nın təqdim edilməsi dövlət xidmətləri ilə yanaşı, özəl şirkətlərin, xüsusilə də bankların işini bir xeyli asanlaşdırıb.

Hazırda “ASAN xidmət” mərkəzlərində vətəndaşlara, biznes subyektlərinə və əcnəbilərə təxminən 400-ə yaxın xidmət göstərilir. Xidmətlərin sistemləşdirilməsi və təkrarlığın qarşısını almaq məqsədilə yaradılmış “Dövlət Xidmətlərinin Elektron Reyestri” portalında 945 dövlət xidməti rəqəmsal olaraq təsdiq edilərək istifadəyə verilib..

Sektorlar üzrə rəqəmsallaşma istiqamətində də mühüm nəticələr əldə edilmişdir. Maliyyə sektorunda 30-dan çox “FinTech” subyekti fəaliyyət göstərməkdədir və bu, ölkədə nağdsız ödənişlərin payının sürətlə artmasına təkan verib. Kənd təsərrüfatında “Elektron Kənd Təsərrüfatı” İnformasiya Sistemi üzərindən 600 mindən çox fermer subsidiyalardan və digər xidmətlərdən rəqəmsal qaydada yararlanır. Səhiyyə sahəsində rəqəmsal həllərin tətbiqi ilə xidmətlərin keyfiyyəti və əlçatanlığı artırılır. Təhsil sistemində rəqəmsal təhsil modelləri formalaşdırılıb, ali təhsil müəssisələri nəzdində rəqəmsal iqtisadiyyat, innovasiya və tədqiqat mərkəzləri yaradılıb. Mülkiyyət sahəsində isə patent və əmtəə nişanlarının rəqəmsal qeydiyyatı üçün “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” sistemi istifadəyə verilib.

**Azərbaycan qlobal trendlərin əsasında rəqəmsal intibaha keçid üçün bütün səylərini səfərbər etməyi nəzərdə tutur və strateji baxış buna fokuslanıb. Beynəlxalq təcrübə göstərir ki, uğurlu rəqəmsal iqtisadiyyat strategiyası dövlət, biznes və cəmiyyətin birgə fəaliyyətini nəzərdə tutan vahid yanaşmaya əsaslanmalıdır. Azərbaycan bu xüsusiyyətlərin fonunda özünün rəqəmsal arxitekturasını qurmağı əsas hədəf kimi müəyyənləşdirib**

## 2026-2029-cu illərə dair rəqəmsal strategiya

Bütün bunlara baxmayaraq, qarşıda mühüm çağırışlar dayanır. Bir çox sahələrdə, o cümlədən bəzi dövlət qurumlarında sənədlərin hələ də kağız formatında olması, qurumdaxili fəaliyyət hesab olunması, ümumiyyətlə, rəqəmsallaşmanın bəzi hallarda prioritetləşdirilmədiyini göstərir. Eyni zamanda, iqtisadi sferalarda istehsal-emal-xidmət üçbucağının birbaşa rəqəmsal və süni intelekt modelinə keçirilməsi nəzərdə tutulur ki, bütün bunlar rəqəmsal transformasiya şəraitində yeni meyilləri formalaşdıracaq.

Bütün bu xüsusiyyətləri nəzərə aldıqda, Azərbaycan qlobal trendlərin əsasında rəqəmsal intibaha keçid üçün bütün səylərini səfərbər etməyi nəzərdə tutur və strateji baxış buna fokuslanıb.

Beynəlxalq təcrübə göstərir ki, uğurlu rəqəmsal iqtisadiyyat strategiyası dövlət, biznes və cəmiyyətin birgə fəaliyyətini nəzərdə tutan vahid yanaşmaya əsaslanmalıdır. Azərbaycan bu xüsusiyyətlərin fonunda özünün rəqəmsal arxitekturasını qurmağı əsas hədəf kimi müəyyənləşdirib. “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya” sənədində ölkədə sahibkarlıq sahəsində rəqəmsal infrastrukturun genişləndirilməsi və transformasiyanın sürətləndirilməsi, iqtisadiyyatın rəqabətliliyinin yaxşılaşdırılması, innovasiya əsaslı inkişafın təşviqi, rəqəmsal bacarıqların gücləndirilməsi, eləcə də rəqəmsal iqtisadi fəaliyyətlərin dayanıqlığının artırılması kimi prioritetlər nəzərdə tutulub.

Strategiya informasiya texnologiyalarının və 4-cü Sənaye İnqilabının əsas texnologiyalarının (süni intellekt, böyük verilənlər, blokçeyn, bulud texnologiyaları, “ağıllı şəhər” həlləri və s.) sürətli inkişafı şəraitində rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşdırılması, onun dayanıqlığının təmin edilməsi və bütün iqtisadi sahələrdə rəqəmsal transformasiyanın geniş tətbiqi prinsiplərinə əsaslanır.

## Coğrafi vəziyyətimiz texnoloji tranzitə keçiddə üstünlüyü təmin edir

Strategiya çərçivəsində iqtisadiyyatın inkişafı üçün rəqəmsal infrastrukturun müasirləşdirilməsi, yeni rəqəmsal bizneslərin inkişafının təşviqi, startap və innovasiya yönümlü ekosistemin dəstəklənməsi, iqtisadi qərarvermədə data əsaslı analitikanın tətbiqi, beynəlxalq rəqəmsal inteqrasiya və standartlaşdırmanın tətbiqi, həmçinin yaşıl və dayanıqlı rəqəmsal iqtisadiyyatın inkişafı prioritet istiqamətlər kimi müəyyən edilib. Strategiyanın icrası nəticəsində iqtisadiyyatın rəqəmsal sektorunun ÜDM-də payının artırılması, rəqəmsal xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi, iqtisadi sahələrdə rəqəmsal texnologiyaların tətbiq səviyyəsinin genişləndirilməsi, rəqəmsal bacarıqlara malik ixtisaslı kadrların sayının artırılması, eləcə də Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi hədəflənir.

Azərbaycan neft-qaz, bağlantılar sahələrində böyük təcrübəsindən istifadə edərək beynəlxalq şirkətlərlə olan əlaqələrin səmtini indi yeni texnoloji cəmiyyət quruculuğuna yönəldir, sərmayə tərəfdaşlıqları qurur. Ötən 20 ildə 350 milyard dollardan çox sərmayə qoyuluşuna nail olan ölkəmiz həm yerli, həm xarici sərmayələrin qorunması ilə sağlam mühit formalaşdırıb və amil qeyri-neft investisiyaları üçün daha geniş zəmin yaradır. Müşavirədə bəyan edildiyi kimi bir çox ölkələrlə icra edilmiş nəhəng layihələrin davamı indi bilik, bacarıq, texniki keyfiyyətlər sahələrini əhatə edir və geniş beynəlxalq əlaqələrin qurulması nəzərdə tutulur. Bu sərmayə əməkdaşlığı nəqliyyat, energetika dəhlizləri fonunda regional fiber-optik dəhlizlərin yaradılmasını təmin edir.

Eyni zamanda, ölkəmizin coğrafi vəziyyətinin əlverişliliyi də rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində töhfəverici rol oynayır. Ölkəmizin Asiya ilə Avropa arasında yerləşməsi, Şimal-Cənub dəhlizi üzərində qərar tutması və yaradılmış logistika infrastrukturu texnoloji tranzitə keçiddə üstünlüyü təmin edir.

## “Yaşıl güclər” texnoloji inkişafın öncül sahəsinə çevrilir

Digər üstünlük ənənəvi enerjidən təmiz enerjiyə keçid üçün rerurslar zənginliyidir. Azərbaycan son illər ərzində aparılan işlər nəticəsində öz enerji generasiya gücünü böyük dərəcədə artıra bilib və 10 min meqavata bərabər gücə malikdir. Yeni dövrdə isə elektrik stansiyalarının hidro, günəş, külək və digər bərpapolunan enerjiyə əsaslanması nəzərdə tutulur. Yerləşdiyimiz bölgə zəngin alternativ enerji mənbələrinə malik olmaqla, generasiya gücümüzü artıracaq. Bu isə xarici tərəfdaşlarla “yaşıl enerji” kabellərinin çəkilişi üçün güclü motivasiyalar deməkdir. Məlumdur ki, Azərbaycan hökumətinin “yaşıl enerji” sektorunda həyata keçirdiyi strategiyanın əsas xətti yerli “yaşıl güclərin” istehsalı və emalına xarici investorların cəlb edilməsidir. Bu istiqamətdə müəyyən edilmiş siyasət öz uğurlu nəticələrini göstərməkdədir. Son 3 ildə Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power”, Böyük Britaniyanın “bp”, Avstraliyanın “Fortescue Future Industries”, Yaponiyanın “TEPSCO”, İtaliyanın “Maire Tecnimont”, Çinin “China Gezhouba Group Overseas Investment”, Fransanın “Total Energies” və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalayıb.

Regional layihələr kontekstində Azərbaycanın Xəzər dənizi və Mərkəzi Asiyanın bərpaolunan enerji potensialının şaxələndirilməsi və Türkiyə və Avropa bazarlarına nəqli istiqamətində marşrutların yaradılması istiqamətində həyata keçirdiyi layihələr mühüm yer tutur. Bu istiqamətdə ötən ilin diqqətçəkən hadisələrindən biri də Budapeştdə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında Yaşıl Enerji Dəhlizi üzrə Birgə Məktubun imzalanıb. Bu, Xəzər dənizi regionu ilə birləşdirəcək qlobal layihənin - “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi”nin 3-4 il ərzində tamamlanmasına təmin edəcək.

***E.CƏFƏRLİ***

# ABŞ-ın Vitse-prezidentinin Azərbaycana səfəri dünya mediasının diqqətində










ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfəri dünya mediasının diqqətindədir.

Səfər zamanı iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Vitse-prezidenti Cey. Di. Venslə mətbuata birgə bəyanatı zamanı səsləndirilən fikirlər dünya mediasında geniş yer alıb. ABŞ-ın "Associated Press", "News Nation", "Fox New", ABC, CNN, "The Washington Post", PBS, "Forbes Breaking News", "C-Span" kimi media orqanları səfəri geniş şəkildə işıqlandırıb və ya mətbuata birgə bəyanatı canlı yayımlayıblar.

"The Washington Post" yazır ki, səfər zamanı Vens sovet dövründən qalma dəmir yolunun tərk edilmiş hissəsini Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutuna (TRIPP) çevirəcək yeni tranzit dəhlizi planlarını açıqlayıb. Qeyd olunur ki, bu marşrut Ermənistan vasitəsilə Azərbaycanı Naxçıvan anklavı və Türkiyə ilə birləşdirəcək.

"Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik. Prezident Trampa Qafqazda sülhə verdiyi töhfəyə görə çox minnətdarıq", - deyə PBS Azərbaycan Prezidenti İlham Əliyevin mətbuata birgə bəyanatdakı çıxışına istinadla qeyd edir.

"Nyu York Post" yazır ki, mətbuata bəyanat zamanı Vitse-prezident Cey. Di. Vens Əfqanıstandakı ABŞ qüvvələri ilə birlikdə Azərbaycanın rolunu vurğulayıb, ABŞ-ın dəniz təhlükəsizliyinə yeni dəstəyini elan edib və Prezident Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında imzalanmış mühüm razılaşmadan sonra tərəfdaşlığın regional sülhün və iqtisadi əməkdaşlığın gücləndirilməsinə kömək edəcəyini bildirib.

# Strateji əməkdaşlığa söykənən qarşılıqlı etimad

## Azərbaycan - Ərəb dünyası əlaqələri: çoxtərəfli diplomatiyadan "yaşıl enerji"yə



Yaxın tərəfdaşlıq, qarşılıqlı hörmət və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas konseptual prioritetlərini təşkil edir. Rəsmi Bakı bütün qitələrlə, müxtəlif siyasi və iqtisadi birliklərlə paralel şəkildə əlaqələr qurmağa və bu əlaqələri qarşılıqlı maraqlar əsasında inkişaf etdirməyə xüsusi önəm verir. Azərbaycanın xarici siyasət xəttində əsas prinsiplər suverenliyə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq, beynəlxalq hüquqa sadiqlik və bərabərhüquqlu əməkdaşlıqdır. Məhz bu prinsiplər ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunu şərtləndirən başlıca amillərdəndir.

Bu kontekstdə Azərbaycanın ərəb dünyası ilə münasibətləri xüsusi yer tutur. Tarixi, mədəni və dini bağlarla yanaşı, müasir dövrdə siyasi, iqtisadi, humanitar və enerji sahələrində əməkdaşlıq bu münasibətləri daha da möhkəmləndirib. Azərbaycan ərəb dövlətləri ilə əlaqələrini yalnız ikitərəfli formatda deyil, həm də çoxtərəfli platformalarda inkişaf etdirir. Xüsusilə Ərəb Dövlətləri Liqası ilə qurulan münasibətlər ölkəmiz üçün mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin ərəb ölkələrinin yüksək səviyyəli toplantılarına fəxri qonaq qismində dəvət olunması Azərbaycanın ərəb dünyasında artan nüfuzunun və etibarlı tərəfdaş imicinin bariz göstəricisidir. Bakı ərəb dövlətləri üçün siyasi dialoq, iqtisadi əməkdaşlıq və investisiya imkanları baxımından cəlbedici mərkəzə çevrilib. Qarşılıqlı səfərlər, imzalanan sazişlər, birgə layihələr və beynəlxalq platformalarda nümayiş etdirilən həmrəylik Azərbaycan ilə ərəb dünyası arasında münasibətlərin strateji xarakter daşıdığını göstərir.



Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev fevralın 11-də Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlət başçısı Azərbaycanın ərəb dünyasını təmsil edən ölkələrlə siyasi, iqtisadi və digər sahələri əhatə edən sıx əlaqələrinin olduğunu deyərək, münasibətlərin genişləndirilməsində özünün ərəb ölkələrinə, ərəb dövlətlərinin liderlərinin isə Azərbaycana səfərlərinin rolunu qeyd edib.

### Bakı Ərəb Dövlətləri Liqası ilə yaxın əməkdaşlıq edir

Ərəb Dövlətləri Liqası Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən 22 mart 1945-ci ildə yaradılıb. Hazırda 22 üzvü olan bu nüfuzlu regional təşkilatın əsas məqsədi üzv dövlətlər arasında siyasi, iqtisadi, mədəni və sosial əməkdaşlığı gücləndirmək, ərəb dünyasının ortaq maraqlarını müdafiə etmək və regional sabitliyə töhfə verməkdir. Liqa çərçivəsində müxtəlif sahələr üzrə şuralar və komitələr fəaliyyət göstərir ki, bu da üzv dövlətlər arasında koordinasiyalı siyasətin formalaşdırılmasına imkan yaradır.

Ərəb Parlamenti isə Liqanın tərkibində fəaliyyət göstərən və üzv ölkələrin parlamentlərini təmsil edən məşvərətçi orqandır. Bu qurum qanunvericilik təşəbbüsləri irəli sürmək, ortaq mövqelər formalaşdırmaq və siyasi dialoqu təşviq etmək məqsədi daşıyır. Parlament həmçinin insan hüquqları, regional təhlükəsizlik, iqtisadi inteqrasiya kimi məsələləri müzakirə edir və tövsiyələr qəbul edir. Bu baxımdan Ərəb Parlamenti ərəb dünyasında parlamentarizm ənənələrinin möhkəmlənməsinə xidmət edən mühüm platformadır.

Azərbaycanın Ərəb Dövlətləri Liqası və Ərəb Parlamenti ilə münasibətləri qarşılıqlı hörmət və dəstək prinsiplərinə əsaslanır. Azərbaycan Liqanın Anlaşma Memorandu çərçivəsində əməkdaşlıq etdiyi yeddi ölkədən biridir. 2005-ci ilin 16 oktyabr tarixində Azərbaycan Respublikası ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanıb. 2014-cü ildə Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində tarixdə ilk dəfə Ərəb Dövlətləri Liqası - Orta Asiya - Azərbaycan Respublikası əməkdaşlığı çərçivəsində İqtisadi Forum keçirilib. Ölkəmiz Liqanın tədbirlərində fəal iştirak edir, qarşılıqlı səfərlər təşkil olunur, birgə bəyanatlar və əməkdaşlıq sənədləri qəbul edilir. Ərəb Parlamenti nümayəndə heyətlərinin Azərbaycana səfərləri və Milli Məclisin üzvlərinin ərəb ölkələrinə rəsmi səfərləri parlamentlərarası əlaqələrin genişlənməsinə xidmət edir.

### "Yaşıl enerji" və iqtisadi əməkdaşlıq istiqamətləri

Azərbaycan ərəb dövlətləri ilə bir sıra strateji istiqamətlərdə, xüsusilə enerji və investisiya sahəsində fəal əməkdaşlıq edir. Son illərdə "yaşıl enerji" və alternativ enerji mənbələrinin inkişafı prioritet istiqamətlərdən birinə çevrilib. Bu sahədə Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri şirkətləri ilə sıx tərəfdaşlıq qurulub. Azərbaycanın bərpaolunan enerji potensialı - günəş və külək enerjisi imkanları - ərəb sərmayədarları üçün cəlbedici investisiya mühiti formalaşdırıb.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Bakıda və regionlarda günəş enerjisi layihələrinin icrası mühüm hadisə kimi qiymətləndirilir. Xüsusilə Qaradağ Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi Azərbaycan-Ərəb investisiya əməkdaşlığının real nəticəsidir. Bu layihə ölkəmizin enerji balansında bərpaolunan mənbələrin payının artmasına və karbon emissiyalarının azalmasına xidmət edir. Eyni zamanda, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə külək enerjisi sahəsində həyata keçirilən layihələr də strateji əhəmiyyət daşıyır. Bu çərçivədə inşa olunan külək elektrik stansiyaları Azərbaycanın "yaşıl enerji" keçidinə mühüm töhfə verir.

Ərəb sərmayədarlarının dəstəyi ilə həyata keçirilən alternativ enerji layihələri yalnız enerji istehsalı ilə məhdudlaşmır. Bu layihələr ekoloji dayanıqlığın güclənməsinə də şərait yaradır.

### Siyasi dialoq və yüksək səviyyəli qarşılıqlı etimad

Azərbaycan ilə Ərəb Dövlətləri Liqası və ərəb ölkələri arasında münasibətlər yalnız iqtisadi müstəvidə deyil, siyasi dialoq baxımından da yüksək səviyyədədir. Qarşılıqlı rəsmi səfərlər, imzalanan sənədlər və beynəlxalq platformalarda nümayiş etdirilən həmrəylik bu münasibətlərin strateji xarakterini təsdiqləyir. Ərəb ölkələri Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini dəstəkləyib, ölkəmiz də öz növbəsində ərəb dünyasının ədalətli təşəbbüslərinə dəstək verib.

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunması xüsusi əhəmiyyət daşıyır. Ərəb dünyasının nüfuzlu mükafatlarından biri olan bu təltif Azərbaycan Prezidentinin apardığı siyasətin ərəb dövlətləri tərəfindən yüksək qiymətləndirildiyini nümayiş etdirir. Bu mükafat həm də iki tərəf arasında mövcud olan etimadın və dostluğun simvoludur. Azərbaycanın multikulturalizm, tolerantlıq və dinlərarası dialoq sahəsində əldə etdiyi uğurlar ərəb dünyasında da rəğbətlə qarşılanır.

Siyasi dialoqun yüksək səviyyədə olması regional və qlobal məsələlərdə koordinasiyalı mövqe formalaşdırmağa imkan verir. Azərbaycan və ərəb ölkələri BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləyir. Bu isə qarşılıqlı etimada əsaslanan münasibətlərin möhkəm təməl üzərində qurulduğunu göstərir.

### Bakının Fələstinlə bağlı mövqeyi...

Bakı daim Fələstin probleminin beynəlxalq hüquqa əsaslanan, iki dövlət prinsipi çərçivəsində ədalətli həllinin tərəfdarı kimi çıxış edib. Azərbaycan Fələstin xalqına humanitar yardım göstərib, beynəlxalq platformalarda onların hüquqlarını müdafiə edib. Bu mövqe ərəb dünyasında yüksək qiymətləndirilir və ölkəmizin prinsipial siyasətinin göstəricisidir. Təsadüfi deyil ki, Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahi Prezident İlham Əliyevə ərəb dünyasının gündəliyində duran məsələlərdə, o cümlədən Fələstin məsələsində göstərdiyi qətiyyətli dəstəyə görə dövlətimizin başçısına ərəb xalqı adından dərin təşəkkürünü bildirib.

### Azərbaycan-Suriya əlaqələri...

Azərbaycanın ərəb dünyası ilə münasibətlərindən bəhs açarkən, ölkəmizin rəsmi Dəməşqə verdiyi dəstək xüsusi qeyd edilməlidir. Bəlli olduğu kimi, Azərbaycan ilə Suriya arasında münasibətlər son dövrlərdə yeni mərhələyə qədəm qoyub. Enerji sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Suriyanın qazla təmin edilməsində mühüm rol oynayaraq regionda enerji təhlükəsizliyinə töhfə verir. Bu əməkdaşlıq humanitar və iqtisadi sabitliyin möhkəmlənməsinə xidmət edir.

Bundan əlavə, Azərbaycan Türkiyə ilə birgə Suriyanın bərpası prosesində aktiv iştirak edir. Müharibədən zərər çəkmiş ərazilərdə infrastrukturun yenidən qurulması, sosial obyektlərin bərpası və humanitar layihələrin həyata keçirilməsi istiqamətində təşəbbüslər irəli sürülür. Azərbaycan özünün post münaqişə bərpa təcrübəsini bölüşərək Suriyada sabitliyin və inkişafın təmin olunmasına dəstək verir.

Bu əməkdaşlıq regional həmrəyliyin və qardaşlıq münasibətlərinin göstəricisidir. Azərbaycan Suriyanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir, ölkənin sabit və təhlükəsiz gələcəyinin qurulmasına töhfə verməyə hazır olduğunu nümayiş etdirir.

Bütün bunlar göstərir ki, Azərbaycan ilə ərəb dövlətləri arasında möhkəm bağlar və dərin əməkdaşlıq əlaqələri mövcuddur. Bu əlaqələr qarşılıqlı maraqlara, ədalət və sülh prinsiplərinə əsaslanır. Azərbaycan daim beynəlxalq hüququn, sabitliyin və ədalətin keşiyində dayanaraq ərəb dünyası ilə tərəfdaşlığını daha da inkişaf etdirmək niyyətindədir.

*Pərviz İSMAYILOV*

# Cənubi Qafqazda sülh reallığı

## Regionun gələcəyini müəyyənləşdirəcək həlledici addım

**Bu günlərdə Cənubi Qafqaz tarixi bir mərhələdən keçir. Region uzun illər davam edən münaqişə, geosiyasi qarşıdurma və qeyri-müəyyənlik mərhələsindən çıxaraq yeni bir düzənin formalaşdığı məkana çevrilməkdədir. Region ilk dəfədir ki, qlobal güclərin maraqlarının toqquşduğu deyil, uzlaşdığı platforma kimi ön plana çıxır. Başqa sözlə, bu gün Cənubi Qafqaz yeni qlobal dizaynın, iqtisadi və siyasi münasibətlər sisteminin formalaşdığı bir məkan kimi çıxış edir. Bu yeni reallığın mərkəzində isə Azərbaycan dayanır. 44 günlük Vətən müharibəsindən sonra yaranmış geosiyasi vəziyyət, Azərbaycanın təşəbbüskarı olduğu diplomatik proseslər, irəli sürdüyü sülh gündəliyi və reallaşdırdığı beynəlxalq layihələr regionun taleyini dəyişən əsas faktor kimi çıxış edir. Post müharibə mərhələsində Azərbaycan qalib dövlət kimi məsuliyyətli**

### Azərbaycanın mövqeyi açıqdır - Ermənistan daimi sülh istəyirsə...

**davranaraq, regionda uzunmüddətli sabitliyin və əməkdaşlığın əsasını qoymağa yönəlmiş siyasət yürütməyə başladı. Bakı yeni reallıqları qəbul etdirməklə yanaşı, Cənubi Qafqazın gələcəyini iqtisadi inteqrasiya, nəqliyyat-kommunikasiya xətlərinin açılması və qarşılıqlı faydalı əməkdaşlıq üzərində qurmaq təşəbbüsü ilə çıxış etdi. Bu yanaşma regionu qlobal enerji və logistika xəritəsində daha strateji mövqeyə çıxardı. Artıq həm Qərb, həm də Şərq Cənubi Qafqazı alternativ marşrut, etibarlı tərəfdaş və sabit platforma kimi dəyərləndirir. Orta Dəhlizin aktuallaşması, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun artması, Asiya ilə Avropa arasında daşımaların genişlənməsi göstərir ki, region yeni qlobal nizamın vacib elementinə çevrilib. Bu transformasiya isə təsadüfi deyil - o, Bakının düşünülmüş, ardıcıl və prinsipial siyasətinin nəticəsidir. Azərbaycan əməkdaşlığa üstünlük verərək dünyaya mühüm mesaj ünvanlayır: müharibə bitibsə, indi sülh quruculuğu mərhələsi başlamalıdır. Yeni dünya nizamının regional konturları da məhz Azərbaycanın sülh təşəbbüsləri fonunda cızılır.**

### Sülh və iqtisadi inkişaf: yeni reallıqların təməli



Sirr deyil ki, iqtisadi inkişaf və qlobal layihələrin reallaşdırılması üçün əsas şərt sabitlik və təhlükəsizlikdir. Tarix göstərir ki, davamlı investisiya mühiti yalnız siyasi risklərin minimuma endirildiyi məkanlarda formalaşır. Azərbaycan məhz bu reallığı nəzərə alaraq postmüharibə dövründə sülh gündəliyini prioritet elan etdi. Qalib dövlət olmasına baxmayaraq, revanşist ritorikadan uzaq duraraq Ermənistanla münasibətlərin normallaşdırılması üçün konkret təkliflərlə çıxış etdi. 2022-ci ildən etibarən aparılan sülh gündəliyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır və region üçün uzunmüddətli təhlükəsizlik arxitekturası formalaşdırmağa yönəlib. Bu gün Bakı həm enerji sahəsində, həm də nəqliyyat-logistika istiqamətində həyata keçirdiyi layihələrlə regionu qlobal bazarlara inteqrasiya edir. Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi layihələr Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz təşəbbüsü artıq Asiya ilə Avropanı birləşdirən əsas marşrut kimi strateji əhəmiyyət daşıyır. Beləliklə də, sülh təşəbbüsləri ilə iqtisadi maraqlar bir-birini tamamlayır. Azərbaycanın təqdim etdiyi model məhz budur: əvvəlcə təhlükəsizlik və hüquqi baza formalaşdırılır, daha sonra isə iqtisadi inteqrasiya dərinləşdirilir. Bu model təkcə region üçün deyil, qlobal miqyasda da müsbət presedent kimi qiymətləndirilə bilər.

### Vaşinqton Zirvəsindən yeni mərhələnin başlanğıcına...

Ötən ilin avqustunda Vaşinqtonda baş tutan Sülh Zirvəsi prosesin yeni mərhələyə qədəm qoymasında mühüm rol oynadı. Bu görüş təkcə diplomatik hadisə deyil, həm də siyasi iradənin nümayişi idi. Sülh sazişi layihəsinin paraflanması tərəflərin prinsipial məsələlərdə yaxınlaşdığını göstərdi. Hazırkı situasiya hətta Ermənistan üçün də yeni imkanlar vəd edir. Regional inteqrasiya, nəqliyyat xətlərinin açılması, Zəngəzur dəhlizinin (TRIPP) reallaşması və iqtisadi əməkdaşlıq platformalarının genişlənməsi Ermənistan iqtisadiyyatında ciddi canlanma yarada bilər. Azərbaycanla ticarət əlaqələrinin qurulması, enerji və neft məhsullarının ixracı perspektivləri də bu yeni mərhələnin real nəticələri kimi qiymətləndirilə bilər. Beləliklə, Vaşinqton Zirvəsi və sonrakı diplomatik addımlar göstərir ki, region artıq yeni mərhələyə daxil olub. Bu mərhələnin əsas xüsusiyyəti qarşıdurmadan əməkdaşlığa keçiddir və bu keçidin əsas təşəbbüskarı Azərbaycandır.

### Paşinyan: Azərbaycanla sülh müqaviləsinin imzalanması...

Hazırda prosesin ən mühüm mərhələsi sülh müqaviləsinin imzalanmasıdır. Siyasi bəyanatlar, paraflanmış sənədlər və razılaşdırılmış prinsiplər nə qədər vacib olsa da, hüquqi baxımdan bağlayıcı sənəd olmadan davamlı sabitlik tam təmin edilə bilməz. Azərbaycan bu məsələdə mövqeyini açıq şəkildə ifadə edir: sülh sənədi formal deyil, real və uzunmüddətli olmalıdır. Ermənistanın siyasi hakimiyyəti də sülhlə bağlı pozitiv fikirdədir - məsələn, Ermənistanın baş naziri Nikol Paşinyan bəyan edib ki, parlament seçkilərindən əvvəl Azərbaycanla sülh müqaviləsinin imzalanması hökumətin gündəliyinə salınıb. “Mənim belə bir gündəliyim var. Gündəlikdə müqavilənin ötən ilin dekabr, yanvar, oktyabr, aprel aylarında imzalanması da var idi, çünki sülh sazişi layihəsi üzrə müzakirələr keçən ilin martında başa çatıb. Beləliklə, işləməyə davam edəcəyik”, - o deyib.

### Sülhün qalıcı olması üçün...

Sülhün imzalanması əsas şərtdir - lakin bunun üçün bütün hüquqi və institusional maneələr aradan qaldırılmalıdır. Xüsusilə, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı iddiaların qalması sülhün legitimliyinə kölgə salan amillərdəndir. Əgər tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyırsa, bu prinsip əsas qanunvericilikdə də öz əksini tapmalıdır. Əks halda, gələcəkdə hüquqi ziddiyyətlər və siyasi manipulyasiyalar üçün zəmin qala bilər.

Azərbaycan qalib dövlət olsa da, maksimalist şərtlər irəli sürmür. Əksinə, beynəlxalq hüquqa əsaslanan, qarşılıqlı tanınmanı və əməkdaşlığı nəzərdə tutan model təklif edir. Göründüyü kimi, Ermənistan da son dövrlərdə sülhə dair konstruktiv bəyanatlar səsləndirir - amma sözlə əməl arasında uyğunluq təmin edilməlidir.

Daimi sülh üçün təkcə siyasi iradə kifayət deyil, həm də hüquqi baza möhkəm olmalıdır. Konstitusiya dəyişiklikləri, normativ sənədlərin uyğunlaşdırılması və cəmiyyətin sülhə hazırlanması bu prosesin ayrılmaz hissəsidir. Əks halda, imzalanacaq sənəd uzunömürlü olmayacaq.

Bu baxımdan, sülh müqaviləsi regionun gələcəyi üçün həlledici sənəd olacaq. O, yalnız iki ölkə arasında münasibətləri tənzimləməyəcək, həm də Cənubi Qafqazın gələcək inkişaf trayektoriyasını müəyyən edəcək.

### Ermənistan real addımlar atmalıdır

Beləliklə, indi əsas məsələ sülh prosesini hüquqi cəhətdən rəsmiləşdirmək və geri dönməz etməkdir. Əgər Ermənistan həqiqətən də qarşıdan gələn siyasi mərhələyə - o cümlədən parlament seçkilərinə qədər sülh müqaviləsini imzalamaqda maraqlıdırsa, o zaman institusional səviyyədə (parlamentdə və ya Konstitusiya Məhkəməsində) konkret addımlar atmalıdır.

Konstitusiyada dəyişikliklərin edilməsi, ərazi iddialarının aradan qaldırılması və qarşılıqlı tanınma prinsipinin təsbit olunması bu prosesin əsas şərtlərindəndir. Bu addımlar atılarsa, sülh sənədi formal deyil, real təminata çevriləcək. Əks halda, imzalanacaq hər hansı razılaşma gələcəkdə yenidən sual altına düşə bilər. Sülh isə yalnız iki ölkə üçün deyil, bütövlükdə region üçün həyati əhəmiyyət daşıyır. Sabitlik yeni investisiyaların cəlb olunmasına, iqtisadi artıma, nəqliyyat və enerji layihələrinin genişlənməsinə, xalqlar arasında etimadın möhkəmlənməsinə xidmət edəcək. Cənubi Qafqaz qarşıdurma məkanı deyil, əməkdaşlıq və tərəqqi platformasına çevrilə bilər.

***P.SADAYOĞLU***

# Qərbi azərbaycanlıların qayıdışına dəstək verilməlidir!

**Hazırda Cənubi Qafqazda dayanıqlı sülhün və sabitliyin təmin olunması üçün əlverişli mühit yaranıb. Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasından sonra tərəflər arasında etimadın formalaşması üçün addımlar atılır. Hər iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri, ticarət əlaqələrinə başlanılması, Zəngəzur dəhlizi ilə bağlı müsbət atmosfer pozitiv məqamlardan xəbər verir. Yəni, tərəflər onilliklər boyu davam edən münaqişənin başa çatmasından sonra sülh şəraitində yaşamağı öyrənirlər.**

### Qərbi Azərbaycan İcması Avropa Şurası və Avropa Parlamentinə çağırış edib

### Avropa Şurasının növbəti qərəzi...

Lakin müəyyən xarici dairələr regionumuzda sülhün təmin olunmasında maraqlı deyil. Bu səbəbdən də, Azərbaycanla Ermənistan arasında yenidən gərginlik yaratmağa xidmət edən mövqe sərgiləyirlər. Bu dairələrdən biri də Avropa Şurasıdır. Belə ki, Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Maykl Oflahertinin Ermənistana etdiyi səfərə dair yayılmış məlumatda Azərbaycanın Qarabağ bölgəsindən könüllü köçüb getmiş ermənilərin qayıdış hüququ xüsusi olaraq vurğulanıb. Halbuki bu məsələ çoxdan bitib. Hətta bir müddət öncə Ermənistanın baş naziri Nikol Paşinyan da Qarabağ ermənilərinin qayıtmasının gündəlikdə olmadığını, onların qayıtmasının yenidən tərəflər arasında problemlər yaradacağını bəyan etmişdi. Paşinyan həmin ermənilərin Ermənistan cəmiyyətinə inteqrasiyasının vacibliyini söyləyib. Belə olan halda, Avropa Şurasının Qarabağ ermənilərinin qayıtmasında marağı nədir? Cavab aydındır: Bu qurumun Azərbaycana qarşı qərəzi bütün dünyaya məlumdur. Torpaqlarımız işğal altında olanda təcavüzkar Ermənistana qarşı heç bir addım atmayan bu təşkilat ölkəmizi “insan hüquqları və demokratiya” bəhanəsi ilə hədəfə alırdı. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Avropa Şurası gerçək simasını aşkara çıxardı. Azərbaycan nümayəndə heyəti ilə bağlı AŞPA-nın çıxardığı qərar da qərəzin və ədalətsizliyin gerçək nümunəsi oldu.

Təəssüf ki, Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Maykl Oflahertinin timsalında bu qərəz hələ də davam etməkdədir. Yeri gəlmişkən, məsələ ilə bağlı Qərbi Azərbaycan İcması bəyanat verib. Bəyanatda qeyd olunub: “Qərbi Azərbaycan İcması əvvəllər bir neçə dəfə Avropa Şurasının müxtəlif təsisatlarına müraciət ünvanlasa da, nədənsə onlar bizim Ermənistanda öz dədə-baba yurdlarımıza qayıdışımızla bağlı mövqeyini ifadə etməyiblər”. İcma Avropa Şurasının insan hüquqları üzrə komissarını sələflərinin, eləcə də Avropa Şurası Parlament Assambleyasının səhvlərini təkrar etməməyə, insan hüquqlarına münasibətdə ayırıcı xətt çəkmək siyasətindən əl çəkməyə və bizim Ermənistana qayıdış hüququmuza dəstək verən ictimai bəyanatla çıxış etməyə çağırıb.

### Qayıdış həmin insanların mənəvi haqqıdır

Əlbəttə, Qərbi Azərbaycan İcması bu mövqeyində tamamilə haqlıdır. Nəzərə alaq ki, Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş fundamental haqlarından biridir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatıb. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə yalnız ermənilər yaşayırlar. Azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə əksər hallarda dövlət orqanlarının sistemli fəaliyyəti ilə zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər və insan hüquqlarının kobud pozulması yolu ilə həyata keçirilib. Bu proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə şiddətli və amansız olub. Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib.

Qərbi azərbaycanlıların tarixi torpaqlarımıza qayıdışının təmin edilməsi üçün bütün imkanlardan, o cümlədən beynəlxalq platformalardan istifadə olunur. Bu istiqamətdə Qərbi Azərbaycan İcması müvafiq beynəlxalq təşkilatlara müraciətlər edir. Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, müharibənin qələbə ilə başa çatması ədalətin bərpa olunması istiqamətində mühüm addım olub və iki ölkə arasında sülh imkanlarını artırıb. Digər tərəfdən, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, bu ölkədə monoetnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir və bu, davamlı sülhün bərqərar olunmasına böyük əngəl törədir.




### Avropa Parlamenti ikiüzlü siyasət aparır

Görünən odur ki, Qərbi azərbaycanlıların qayıdışı məsələsinin beynəlxalq müstəviyə çıxarılması Avropa Şurası, o cümlədən Avropa Parlamenti kimi qurumların marağında deyil. Bu qurumlar erməni diasporunun və lobbisinin alətlərindən başqa bir şey deyil. Sanki Avropa Şurası Azərbaycana qarşı qərəzli münasibətdə Avropa Parlamenti ilə yarışa girib. Bugünlərdə Avropa Parlamentinin bir qrup deputatı Azərbaycanı “bütün erməni məhbusları”nı azad etməyə çağıran bəyanat verib. Qərbi Azərbaycan İcması bu bəyanata da münasibət bildirib. İcma həmin bəyanatı Ermənistanın Azərbaycan ərazilərini işğalına, törətdiyi etnik təmizləməyə, hərbi cinayətlərə göz yumulması və təşviq edilməsi kimi qiymətləndirib. Qeyd olunub ki, ədalət təmin edilmədən sülhə nail olmaq mümkün deyil: “Bu günlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş erməniəsilli şəxslər keçən əsrin sonlarından başlayaraq bütöv bir regionu sonsuz faciələrə, eləcə də biz Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarından deportasiya olunmasına düçar etmiş “miatsum” ideologiyasının daşıyıcıları və icraçılarıdır. Avropa Parlamentinin üzvləri suveren ölkənin daxili işlərinə qarışmaq, ona iftiralar atmaqdansa, yuxarıda qeyd edilən şəxslərin qanlı əməllərindən əziyyət çəkmiş Qərbi azərbaycanlıların Ermənistandakı öz doğma yurdlarına qayıdışına ictimai dəstək verməlidir”.

Bir sözlə, Avropa Şuarsı ilə Avropa Parlamenti ikili standartlara son qoymalıdır. Onların mövqeyindən asılı olmayaraq, Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Təsadüfi deyil ki, Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. Bir neçə gün öncə ABŞ-ın vitse-prezidenti Vensə də müraciətin edilməsi qayıdış istiqamətində sistemli tədbirlər görüldüyünü təsdiqləyir.

***Nardar BAYRAMLI***

# Avrasiyanın strateji körpüsü

**Mövcud geosiyasi reallıqlar şəraitində bütün dünyada, o cümlədən də Avrasiyada yeni nizam formalaşmaqdadır. Müxtəlif sahələrdə baş verən transformasiyalarda ayrı-ayrı dövlətlərin və beynəlxalq təşkilatların mövqe itkilərinə məruz qaldıqları, digərlərinin isə önə çıxdıqları, üstünlük qazandıqları açıq şəkildə müşahidə edilməkdədir. Belə heç də adi olmayan bir şəraitdə Azərbaycanın mövqeyinin güclənməsi məmnunluq doğurur. Respublikamız aparılan uğurlu siyasətin nəticəsi olaraq yeni geosiyasi və geoiqtisadi dalğada yaxşı mənada fərqlənir və bu, ayrı-ayrı beyin mərkəzləri, nüfuzlu analitik qruplar və nəşrlər səviyyəsində də etiraf olunur. Nüfuzlu “Forbes” nəşrinin analitik məqaləsində ölkəmiz barədə yer alan fikirlər bunu bir daha təsdiqləyir.**

## Azərbaycanın üstünlüyünü şərtləndirən amillər

“Forbes” nəşrinin məqaləsində regionda izlənilən kritik geosiyasi yenidənqurma fonunda Azərbaycanın ön plana çıxaraq Avrasiya və Hind-Sakit okean regionu arasında strateji körpüyə çevrildiyinə xüsusi diqqət çəkilir. Həqiqətən də, son dərəcə əlverişli coğrafi yerləşməyə malik olması Azərbaycanın böyük üstünlüyüdür. Şimaldan Cənuba, Şərqdən Qərbə gedən əsas marşrutlar, o cümlədən son vaxtlarda aktuallığı əhəmiyyətli dərəcədə artan Orta Dəhliz məhz respublikamızın ərazisindən keçir.

Lakin ölkəmizin üstünlüyü yalnız coğrafiya ilə bağlı deyil. Dövlətin, şəxsən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq ölkə ərazisindən keçən bütün marşrutların inkişafına hərtərəfli dəstək verilməsi Azərbaycanın üstünlüyünü şərtləndirən digər çox mühüm faktordur.

Tarixi İpək Yolunun üstündə yerləşən Azərbaycan müstəqilliyinin ilk illərindən bu marşrutun bərpasına həssas yanaşma sərgiləyir. Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfransın yekununda Avropa İttifaqının (Aİ) TRASEKA proqramı əsasında “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib.

Bundan başqa, Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən “İpək Yolu İqtisadi Kəməri” layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu” imzalanıb.

Respublikamız Orta Dəhlizin təşviqi məqsədi ilə də dəhliz üzərində yerləşən ölkələrlə sıx əməkdaşlıq həyata keçirir. Qeyd edək ki, 2022-ci il noyabrın 22-də Azərbaycan, Qazaxıstan və Türkiyə arasında “Orta Dəhliz”in inkişafı üzrə 2022-2027-ci illəri əhatə edən Yol Xəritəsi imzalanıb. 2024-cü il iyulun 3-də qəbul olunmuş “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” Orta Dəhlizin inkişafı istiqamətində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

Məhz respublikamızın fəallığının, davamlı təşviq siyasətinin nəticəsidir ki, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər dövlətlər Orta Dəhlizin inkişafını hədəfləyən platformalar birləşiblər. Bu platformalar çərçivəsində uzlaşdırılmış fəaliyyətlər Orta Dəhlizin cəlbediciliyinin artmasına güclü impuls verir. 2023-cü il noyabrın 23-də təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Plan”ı ölkəmizin tranzit potensialından daha səmərəli istifadəyə imkanlar yaradır. Orta Dəhliz üzrə yükdaşımaların artması məqsədilə yüklərin həm dəmir yolları, həm də avtomobil yolları ilə sürətli və səmərəli şəkildə daşınması təmin edilir.

Sadalanan faktlardan da göründüyü kimi, Azərbaycan böyük coğrafiyada kommunikasiyaların təhlükəsizliyi və səmərəliliyi üçün ən əlverişli məkandır. “Forbes”də dərc olunan materialın müəllifləri qeyd ediblər ki, izlənilən proseslər Şərqi Avropa və Qara dənizdən Türkiyə, Cənubi Qafqaz, Xəzər, Mərkəzi Asiya, Cənubi Asiya vasitəsilə Ərəbistan dənizinə qədər uzanan yeni geoiqtisadi məkan yaradır. “Tarixən bu geniş quru sahəsi rəqib imperiyaların - yunan, fars, Roma, Bizans, ərəb, türk, monqol və rus imperiyalarının qarşıdurma arenası olub. Bu gün formalaşan Trans-Avrasiya şəbəkəsində Azərbaycan Avropa, Avrasiya və Hind-Sakit okean iqtisadi sistemini və təhlükəsizlik arxitekturasını birləşdirən strateji körpü rolunu oynayaraq kilid mövqe tutur. Müvafiq olaraq, ABŞ-ın Bakı ilə qarşılıqlı fəaliyyətini dərinləşdirməsi regionda dəyişən güc balansına təsir göstərmək üçün kritik dərəcədə vacib rıçaqa çevrilib”, - deyə məqalədə vurğulanır.

## Nəqliyyat bağlantılarının inkişafında yeni mərhələ - Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılması

Azərbaycan ölkə ərazisindən keçən marşrutların inkişafına və funksionallığının artmasına yalnız siyasi iradə nümayiş etdirməklə kifayətlənmir, həmçinin praktiki müstəvidə önəmli layihələr həyata keçirir. Ölkə ərazisində vacib nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb və Orta Dəhlizin inkişafına verdiyi çox mühüm töhfədir. Son illərdə dövlətimizin başçısının qətiyyətli siyasi iradəsinə uyğun olaraq respublikamız bütün marşrutlar üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də avtomobil yollarına, dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yönəldib. Burada iki layihənin önəmini ayrıca qeyd etmək lazımdır. Bunlardan biri 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Azərbaycanın təşəbbüsü və moderatorluğu ilə ərsəyə gələn BTQ region ölkələrinin tranzit potensialının artmasına yeni imkanlar yaradıb. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirilməsi layihəsi artıq tamamlanıb. Genişləndirmədən sonra BTQ-nin illik yükaşırma gücü 1 milyon tondan 5 milyon tona çatdırılıb.



Güclü dövlət olan Azərbaycan həmçinin Xəzərdə ən böyük ticarət limanının inşasına nail olub. Hazırda Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır.

Görülən tədbirlər nəticəsində son üç ildə Orta Dəhliz üzrə tranzit yük həcmləri təxminən 90 faiz artıb ki, bu da onun səmərəliliyini və artan aktuallığını nümayiş etdirir. Bununla yanaşı, dəhliz üzrə yük daşımaların tranzit müddəti 15 günə enməklə əhəmiyyətli dərəcədə azalıb.

Daha bir mühüm məqama da diqqət çəkmək istərdik. Söhbət Zəngəzur dəhlizinin (Tramp marşrutu) yaradılmasından gedir. Orta Dəhlizin bir qoluna çevriləcək bu marşrutun yaradılması qalib Azərbaycanın təşəbbüsü əsasında gündəmə gəlib. Sonrakı mərhələdə yenə də ölkəmizin, şəxsən Prezident İlham Əliyevin davamlı səyləri sayəsində yeni nəqliyyat bağlantısının yaradılması istiqamətində böyük yol keçilib və ötən il avqustun 8-də Vaşinqtonda bununla bağlı prinsipial razılaşma əldə olunub. Bütövlükdə, yeni marşrut optimal regional bağlantını təmin edəcək. O cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat əlaqəsi yaranacaq, Ermənistan blokadadan çıxacaq, Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq.

Hazırda Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılması istiqamətində işlər intensiv mərhələyə daxil olub. “Forbes” xatırladır ki, ABŞ-ın vitse-prezidenti Cey Di Vensin İrəvan və Bakıya səfəri Ermənistan vasitəsilə Azərbaycanı onun eksklavı Naxçıvanla birləşdirəcək strateji tranzit dəhlizinin - “Beynəlxalq sülh və firavan həyat naminə Tramp marşrutu”nun inkişafını sürətləndirmək məqsədi daşıyır.

***Mübariz ABDULLAYEV***

# “Sövdələşmə”nin gizlinləri ifşa olundu...

## DTX Ramiz Mehdiyev, Abbas Abbasov, Əli Kərimli və digərləri barədə məlumat yayıb

Dövlət Təhlükəsizliyi Xidməti Ramiz Mehdiyev, Abbas Abbasov, Əli Kərimli və digərləri barədə məlumat yayıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən verilən məlumata görə, xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və qeyrilərinin hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranıb.

Cinayət işi üzrə təqsirləndirilən şəxslərə elan edilmiş ittihama əsasən, xarici ölkənin xüsusi xidmət orqanları tərəfindən Azərbaycandakı siyasi proseslərə müdaxilə etmək məqsədilə yaradılaraq 4 iyul 2012-ci ildə xarici ölkədə “Rusiya Azərbaycan Təşkilatları İttifaqı” adı altında qeydiyyatdan keçirilmiş və “Milyarderlər İttifaqı” adlandırılan təşkilatın həmtəsisçiləri və rəhbərləri olmuş Abbasov Abbas Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyriləri dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşiblər.

Belə ki, onlar 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində xarici ölkə vətəndaşı Rüstəm İbrahimbəyovun namizədliyini irəli sürən “Demokratik Qüvvələrin Milli Şurası” (Milli Şura) adlı təşkilat yaratdıqdan sonra xarici xüsusi xidmət orqanlarının maddi yardımı və digər formalarda təşkilati dəstəyi ilə dövlət hakimiyyətinin zorla ələ keçirilməsi üçün kütləvi iğtişaşların törədilməsi, hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olunmaması, ictimai qaydanın, nəqliyyat, müəssisə, idarə və təşkilatların işinin pozulması istiqamətində fəaliyyət göstərib, həmçinin bu məqsədlə respublikanın müxtəlif rayonlarından insanların cəlb edilməsi üçün AXCP-nin üzvü İbrahim Məmməd Əziz oğlu və digərləri vasitəsilə qəbul etdikləri 933.828,40 manat məbləğində pul vəsaitini, o cümlədən Ramiz Mehdiyev və Abbas Abbasovdan əldə edilən maddi vəsaitləri qeyd olunan əməllərin törədilməsinə yönəldiblər.

Cinayət işinin materiallarına əlavə edilmiş texniki sübutlara əsasən, “Milyarderlər İttifaqı” adlandırılan təşkilatın üzvlərinə yaşadıqları xarici ölkədə tabeliklərində işləyən və ya digər formada himayələrində olan Azərbaycan vətəndaşlarının 2013-cü ildə Prezident seçkiləri zamanı Azərbaycana göndərilmələri, onların hər birinin Azərbaycandakı qohumları və yaxınlarını cəlb edərək, xarici xüsusi xidmət orqanının təlimatına uyğun şəkildə mitinqlər və kütləvi iğtişaşlarda istifadə olunmalarını təmin etmələri barədə tapşırıqlar verilib.

Məlum olub ki, qabaqcadan aparılan danışıqlar nəticəsində müvafiq xarici dövlətin səlahiyyətli şəxslərinin istəyinə uyğun olaraq, “Milli Şura”nın 2013-cü ildə bu xarici dövlətin rəhbərliyinə ünvanladığı gizli məktubda “şura”nın fəaliyyətinin dəstəklənməsi xahiş edilmiş, həmin ölkədə aparılan “islahatlar”ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif edilib.

Qeyd olunan ittihama əsasən, Qənimət Zayıdov 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin adından xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar



aparıb, onun Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində xarici xüsusi xidmət orqanlarının geniş təşkilati və xüsusi imkanlarından istifadə edilməsi üçün müraciət edib, qarşılığında Azərbaycanda xarici dövlətin strateji maraqlarının təmin ediləcəyini konkret detallar sadalamaqla vəd edib, eləcə də tərəflər Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə Azərbaycan Respublikasının mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacağı barədə razılaşıblar.

Eyni zamanda ittihama əsasən, Əli Kərimli adıçəkilən şəxslərlə qabaqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun qaydada cinayət əməllərini davam etdirərək, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar verib.

Bundan başqa, Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən “Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər” başlığı altında müvafiq xarici dildə hazırladığı yazılı materialı köməkçisi Əmirov Eldar Qurban oğlu və digərləri vasitəsilə həmin sənəddə nəzərdə tutulan məsələlərin birgə razılaşdırılması məqsədilə 27 sentyabr 2025-ci il tarixində Əli Kərimliyə təqdim edib, 2025-ci ilin oktyabr ayının 3-də sözügedən yazının yekun redaktə olunmuş nüsxəsini qabaqcadan şəxsən əlaqə saxladığı xarici dövlətin xüsusi xidmət orqanlarının rəhbər vəzifəli şəxslərinə faktiki sahibi olduğu “Şərq-Qərb” ASC-nin əməkdaşları vasitəsilə göndərib, qeyd olunan göndəriş texniki olaraq fiksə edilib.

Bu əməlləri ilə Ramiz Mehdiyev dövlət hakimiyyətinin xarici xüsusi xidmət orqanlarının köməyi ilə ələ keçirilməsi və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər edib, xarici dövlətin nümayəndələrinə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd kömək etməklə dövlətə xəyanət edib.

Bundan əlavə, Ramiz Mehdiyev 13 oktyabr 2025-ci il tarixinədək olan müddətdə cinayət yolu ilə əldə edilmiş 17.000.000 manatdan artıq pul vəsaitini leqallaşdırıb.

Sadalanan cinayət əməllərində iştiraklarına görə, Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.

Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə araşdırmalar davam etdirilir.

# Valyuta Fondu islahatlara dəstək verəcək

## Fondun nümayəndələri azad ərazilərdəki imkanlarla tanış olub



Beynəlxalq Valyuta Fondunda (BVF) Azərbaycanın daxil olduğu İsveçrə Seçki Qrupu üzrə icraçı direktor Patrik Loşevski Ağdam, Xankəndi və Şuşa şəhərlərinə səfər edib. Səfər çərçivəsində icraçı direktora işğal dövründə tamamilə dağıdılmış Ağdamda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri, şəhərin Baş Planının icrası, müasir infrastrukturun formalaşdırılması, habelə Böyük Qayıdış Proqramı çərçivəsində əhalinin mərhələli şəkildə köçürülməsi istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib. P.Loşevski həmçinin, Xankəndinin mərkəzi hissəsi və əsas infrastruktur obyektlərinin fəaliyyəti, burada aparılan bərpa və yenidənqurma işləri, sosial infrastrukturun təşkili və sakinlərin yaşayış şəraitinin təmin olunması istiqamətində görülən tədbirlərlə tanış olub.

Şuşaya səfər zamanı isə qonağa şəhərin zəngin tarixi-mədəni irsi, mədəniyyət abidələrinin bərpası, həmçinin həyata keçirilən infrastruktur və turizm layihələri barədə geniş məlumat təqdim olunub.

**Makroiqtisadi dayanıqlıq möhkəmlənib**

Mərkəzi Bankın (MB) rəhbəri Taleh Kazımovla görüşən Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri Anna Bordon və Patrik Loşevski makroiqtisadi vəziyyəti müzakirə ediblər. Söhbət zamanı inflyasiyaya təsir edən başlıca amillər, eləcə də pul siyasətinin ötürücülüyünün gücləndirilməsi və pul siyasəti çərçivəsinin təkmilləşdirilməsi məsələləri müzakirə olunub, əməkdaşlığın mövcud vəziyyəti və onun genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Maliyyə Nazirliyində keçirilən görüşdə isə ölkəmizdə həyata keçirilən institusional və struktur islahatlar nəzərə alınmaqla potensialın artırılması və texniki yardım mexanizmlərinin gücləndirilməsinin vacibliyi vurğulanıb. Bu çərçivədə fiskal və monetar siyasətin əsas istiqamətləri, makroiqtisadi və maliyyə sabitliyinin qorunması, habelə qlobal iqtisadi proseslərin yaratdığı risklərə qarşı dayanıqlığın artırılması məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Azərbaycan ilə BVF arasında uzunmüddətli və qarşılıqlı etimada əsaslanan əməkdaşlığın əhəmiyyəti nəzərə alınaraq IV Maddə üzrə Məsləhətləşmələrin davam etdirilməsi qərarı verilib. Xatırladaq ki, bu maddə üzrə tərəfdaşlıq makroiqtisadi qiymətləndirmə baxımından mühüm platforma hesab edilir.

A.Bordon bildirib ki, həyata keçirilən fiskal və monetar siyasətin makroiqtisadi dayanıqlığın möhkəmləndirilməsi və uzunmüddətli inkişafın təmin olunmasında mühüm rol oynayır. Fond texniki yardım və potensialın artırılması mexanizmlərinin və institusional islahatların davam etdirilməsində dəstək verəcək.

Fond, eyni zamanda, Azərbaycanda fiskal islahatlarla bağlı araşdırma və tədqiqatlar aparır və yekun hesabtlar hazırlayır. Hesabatda ölkədə dövlət maliyyə statistikasının vəziyyəti (GFS) əks etdirilir. Ötən illər ərzində Azərbaycanın GFS-in tərtibi və yayımlanması üçün institusional infrastrukturun qurulması istiqamətində addımlar atması sənəddə əks olunub. Bundan əlavə, büdcə sisteminin təkmilləşdirilməsi üzrə aparılan islahatlar çərçivəsində qurulmuş Orta Müddətli Xərclər Çərçivəsi Mərkəzinin fəaliyyəti də tədqiq olunub. Ümumilikdə, hesabatda Azərbaycanda GFS-in tərtib olunmasının şəffaf olması önə çıxır. Bununla yanaşı, müvafiq istiqamətdə institusional infrastruktur üzrə inkişaf imkanlarının olması barədə təklif və tövsiyələr də yer alıb.

**BVF-nin proqnozları ümidvericidir**

Yeri gəlmişkən, Azərbaycanın Beynəlxalq Valyuta Fondundakı SDR (Xüsusi Borcalma Hüquqları) ehtiyatlarının bir hissəsi gəlir məqsədilə investisiya etməsi siyasəti də müsbət dəyərləndirilib. Qeyd edək ki, bir neçə ay əvvəl 37,62 milyon SDR və ya 49 milyon ABŞ dolları Mərkəzi Bank tərəfindən valyuta ehtiyatlarının idarə edilməsi çərçivəsində əlavə gəlirlilik məqsədilə digər maliyyə alətlərinə investisiya olunub. Nəticədə, ölkənin IMF-dəki SDR ehtiyatlarının həcmi 451,49 milyon SDR-dən 413,87 milyon SDR-ə enib. Bu yanaşma ehtiyatların daha səmərəli idarə olunmasına və əlavə gəlir imkanlarının reallaşdırılmasına xidmət edir və BVF də bunu təqdir edir. Beynəlxalq bazarlarda əlverişli şərtlər yarandıqca, SDR vəsaitlərinin investisiyası təcrübəsinin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

BVF-nin ekspert qrupu Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozlarını da açıqlayıb. Qeyd olunduğuna görə, ümumi iqtisadi artımın 2026-cı ildə təxminən 2,5 faiz olacağı və növbəti illərdə də bu səviyyə ətrafında qalacağı gözlənilir. Cari ildə qeyri-neft iqtisadiyyatında artım tempi 4 faizdən çox gözlənilir. Missiya üzvlərinin qənaətinə görə, Azərbaycan iqtisadiyyatının enerji amili üzərində dayanmadığı özünü son illərin əlavə dəyər artımında göstərməkdədir. Qeyri-neft sektorunun artmasında əsas amillər biznes sektorunun fəallığının yüksəlməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdən kənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər, bölgələrdə yeni müəssisələrin yaradılmasıdır.

***E.CƏFƏRLİ***

# Ankara - Afina: Buzlar əriyir

Tarixən aralarında ziddiyyətlər yaşanan, bununla belə eyni coğrafiyanı bölüşmələrinin fərqində olan Türkiyə və Yunanıstan münasibətlərin normallaşması istiqamətində daha bir addım atıblar. Belə ki, bu günlərdə Ankarada Türkiyə ilə Yunanıstan arasında Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iki ildən sonra ilk iclası keçirilib.

Görüş çərçivəsində iki ölkə arasında müxtəlif sahələri əhatə edən 7 sənəd imzalanıb. Sənədlərin imzalanma mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis iştirak ediblər.

Altı sənəd iki ölkənin müvafiq nazirləri tərəfindən imzalanıb, bir sənəd - Türkiyə və Yunanıstan hökumətləri arasında birgə bəyannamə isə liderlər tərəfindən təsdiqlənib. Sazişlərin iqtisadiyyat, ticarət, turizm, nəqliyyat və digər əməkdaşlıq istiqamətlərini əhatə etdiyi bildirilib. Çox doğru olaraq Türkiyə paytaxtında sənədlərin imzalanması iki qonşu ölkənin əməkdaşlıq kursuna qayıdışı kimi dəyərləndirilir.

### İki ölkə arasında mövcud ziddiyyətlər çətin olsa da...



Görüş zamanı liderlər Türkiyə ilə Yunanıstan arasında tarixən mövcud olmuş ziddiyyətlərin çətin olduğunu bildirməklə yanaşı, danışıqların davam etdirilməsinin, iki ölkə arasında mövcud fikir ayrılıqlarının beynəlxalq hüquq çərçivəsində və konstruktiv dialoq yolu ilə həllinin vacibliyini vurğulayıblar. Yunanıstanın Baş naziri bəyan edib ki, Egey dənizində kontinental şelf və müstəsna iqtisadi zonalar kimi mürəkkəb məsələlər üzrə tərəflər razılığa gələ bilmədikdə beynəlxalq məhkəmə mexanizmlərindən istifadə variantı istisna edilmir. Onun sözlərinə görə, iki ölkə eyni regionda yerləşir və coğrafiya dəyişməz olsa da, əməkdaşlıq imkanları genişdir.

Türkiyə Prezidenti isə bildirib ki, mövcud çətinliklər mürəkkəb olsa da, beynəlxalq hüquq çərçivəsində həll oluna bilər. O, tərəflər arasında xoş niyyətin, açıq dialoqun və qarşılıqlı hörmətin əsas prinsip kimi qorunmasının vacibliyini qeyd edib. Ərdoğan, həmçinin Türkiyə ilə Yunanıstanın NATO müttəfiqi olduğunu xatırladaraq regional təhlükəsizlik və sabitlik məsələlərində əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Bəs iki ölkə arasında uzun illərdir ki, davam edən ziddiyyətlər nədən qaynaqlanır? Ziddiyyətlərin təməlində ərazi iddiaları - adaların taleyi məsələsi dayanır. Egey dənizinin cənub-şərqində “12 ada” kimi tanınan, əslində sayı 12-dən çox olan bu adalar XX əsrin əvvəllərinə qədər Osmanlı imperiyasına məxsus olub.

1923-cü il iyulun 24-də Türkiyə ilə Qərb dövlətləri arasında imzalanan Lozanna müqaviləsinə əsasən, yüz illərlə davam edən türk-yunan ixtilafı qismən həllini tapıb və iki dövlət arasındakı sərhəd dəqiqləşdirilib. Egey dənizindəki xırda adalar bölüşdürülüb. Bir milyona yaxın yunan Türkiyədən Yunanıstana, 500 min türk isə Yunanıstandan Anadoluya köçürülüb. Lozanna razılaşması faktiki olaraq Türkiyəni Dardanel və Bosfor boğazlarındakı haqlarından məhrum edib. Türkiyə bu qiymətli keçidlər üzərindəki haqlarını bir də 1936-cı ildə imzalanmış “Montrö sazişi” ilə geri ala bilib.

Lakin ortada 2 müqavilə olsa da, Egey dənizindəki məlum adalara Türkiyə ilə Yunanıstanın iddiaları hazırda da davam edir. Gərginliyin digər səbəbi Yunanıstanın Şərqi Egey adalarında hərbi texnika yerləşdirməsidir ki, bu da Türkiyənin sərt reaksiyasına gətirib çıxarıb. Bundan başqa, rəsmi Afina Şimali Kiprin müstəqilliyini tanımaq istəmir. Türkiyə isə əksinə, Şimali Kipri müstəqil aktor kimi qəbul edir.

### 2023-cü ildən başlayan müsbət proseslər

Ərazi iddialarına son qoyulmasa da, 2023-cü ildən etibarən Ankara ilə Afina arasında buzların əridiyi müşahidə edilir. Əsas məqamlardan biri ondan ibarətdir ki, liderlər iki ölkə arasındakı münasibətləri indiki səviyyədən daha da irəli aparmağa siyasi iradə göstərirlər. 2023-cü ildə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 6 illik fasilədən sonra Afinaya ilk rəsmi səfərə getməsi və iki ölkə arasında “Dostluq münasibətləri və mehriban qonşuluq haqqında Afina Bəyannaməsi”nin imzalanması ilə qarşılıqlı münasibətlərdə yeni səhifə açılıb. Bəyannaməyə əsasən, Türkiyə və Yunanıstan dostluq münasibətlərini inkişaf etdirmək, qarşılıqlı hörmət və beynəlxalq hüquqa əsaslanan siyasi əlaqələri gücləndirmək, aralarındakı hər hansı mübahisələri sülh yolu ilə və beynəlxalq hüquqa uyğun olaraq həll etmək kimi öhdəliklər götürüblər.

Əlbəttə, son 3 ildə hər şeyin rəvan getdiyini söyləmək mümkün deyil. Məlumatlara görə, son illərdə Egey dənizi və Şərqi Aralıq dənizi ilə bağlı qarşılıqlı bəyanatlar və hərbi-texniki addımlar fonunda münasibətlərdə gərginlik müşahidə olunub. Bununla belə, bugünlərdə Ankarada baş tutan görüş və aparılan müzakirələr onu deməyə əsas verir ki, tərəflər ayrı-ayrı istiqamətlərdə əməkdaşlığı genişləndirmək və etimad quruculuğuna nail olmaq istəyindədirlər. Ankarada keçirilən son görüşün əsas məqsədi münasibətləri əməkdaşlıq məcrasına qaytarmaq və gərginliyi azaltmaq kimi qiymətləndirilir. Diplomatik mənbələrin bildirdiyinə görə, tərəflər qarşılıqlı ticarət dövriyyəsini artırmaqda maraqlıdırlar. Hazırda illik ticarət həcmi təxminən 7 milyard dollar təşkil edir və bu göstəricinin 10 milyard dollara çatdırılması hədəflənir. Turizm və nəqliyyat sahələri də əməkdaşlığın əsas istiqamətləri kimi qeyd olunur.

Görüşdə, həmçinin qanunsuz miqrasiya ilə mübarizə, regional təhlükəsizlik və Kipr məsələsi üzrə fikir mübadiləsi aparılıb.

Beləliklə, Ankarada keçirilən Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclası Türkiyə ilə Yunanıstan arasında münasibətlərin normallaşdırılması və əməkdaşlıq istiqamətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

***Mübariz ABDULLAYEV***

# Tbilisi - Brüssel xəttində daha bir qırılma

## Aİ-nin 25 üzv ölkəsi Gürcüstan diplomatları üçün vizasız rejimin dayandırılmasını dəstəkləyib

Qonşu Gürcüstanla Avropa İttifaqı (Aİ) arasında çatlar dərinləşməkdədir və bu günlərdə daha bir qırılma baş verib. Söhbət Aİ-nin 25 üzv ölkəsinin Gürcüstan diplomatları üçün vizasız rejimin dayandırılmasını dəstəkləməsindən gedir.

Qərar 25 səs lehinə, 2 səs əleyhinə olmaqla qəbul edilib. Macarıstan və Slovakiya qərara qarşı çıxıblar. Martın əvvəlində qüvvəyə minəcək qərarla Gürcüstan diplomatları Aİ ölkələrinə vizasız səfər hüququndan məhrum ediləcəklər.

**Rəsmi Tbilisi ilə Brüssel arasında permanent hal alan qarşıdurma**

Xatırladaq ki, Gürcüstan 2012-ci ildən Aİ ilə viza rejiminin liberallaşdırılması istiqamətində danışıqlara başlayıb. Aparılan danışıqlar 5 il çəkib və yalnız 2017-ci ilin martında Gürcüstan və Aİ arasında vizasız gediş-gəliş rejimi qüvvəyə minib. Lakin yuxarıda bəhs olunan qərar da göstərir ki, artıq qarşılıqlı münasibətlərdə əks proseslər başlayıb. Bundan əvvəl ötən il Aİ-nin 10-dan çox ölkəsi Gürcüstanın diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejimi aradan qaldırıb.

Ekspert çevrələrində Gürcüstan diplomatlarının Aİ ölkələrinə vizasız səfər hüququndan məhrum edilmələri son illərdə Tbilisi-Brüssel xəttində müşahidə edilən permanent gərginliyin tərkib hissəsi kimi dəyərləndirilir. Permanent gərginliyin əsas səbəbi isə Gürcüstan hakimiyyətinin həyata keçirdiyi siyasətlə Aİ-nin bu ölkədən almaq istədikləri arasında kəskin ziddiyyətlərin olması ilə bağlıdır. Bir vaxtlar Aİ Gürcüstanı özünün genişlənmə siyasətinə daxil etmişdi və bu proses müəyyən səviyyəyədək irəliləmişdi. Rəsmi Tbilisi Brüsseldən ardıcıl olaraq siyasi dəstək və maliyyə yardımları alırdı. Bəs bütün bunların əvəzində Gürcüstandan nə istənilirdi? Bax, əsas sual bundan ibarətdir. Brüsselin istəyinə görə, Gürcüstanda sözəbaxan, Qərbdən gələn tezisləri milli fəaliyyət planı kimi qəbul edən hakimiyyət qurulmalı idi. Həmçinin Gürcüstan hakimiyyətindən Qərbə inteqrasiya siyasətini vahid bir xətt kimi davam etdirməsi tələb olunurdu.



“Gürcü Arzusu - Demokratik Gürcüstan” Partiyasının qurduğu hökumət isə Brüsselin Aİ-yə üzvlüyü milli dövlətə qarşı təyziq vasitəsinə çevirməsini əsla qəbul etmir. Qonşu ölkədə milli maraqların qorunması, seçimlərin müstəqil şəkildə edilməsi prioritet kimi müəyyənləşdirilib.

**Parlamentdə qəbul olunan qanunlar və Aİ-nin sərt üzü**

Proseslər irəlilədikcə məlum oldu ki, Gürcüstan rəhbərliyinin milli maraqları önə çəkmək istəyi ilə Qərbə inteqrasiya siyasətini bir arada təsəvvür etmək belə mümkün deyil. Daha dəqiq desək, Qərb belə yanaşmanı yaxına buraxmır. Münasibətlərdəki çatlar Gürcüstan parlamentində əvvəlcə “Xarici təsirin şəffaflığı haqqında”, bunun ardınca isə “Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi” adlı qanunların qəbul edilməsi ilə daha da dərinləşdi. Gürcüstan hakimiyyəti “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbul olunmasını ölkənin milli maraqlarının qorunması zərurəti ilə əlaqələndirir. Qanunda xaricdən maliyyələşən müvafiq təsisatlara nəzarət mexanizmi nəzərdə tutulur. Bu nəzarət mexanizmi isə ilk növbədə şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədi daşıyır. Fəaliyyətlərini qanunla müəyyənləşdirilən prosedurlara uyğun qurmayan təsisatları ciddi cərimələr gözləyir.

Qərb isə bəhs olunan qanunu başqa izahlar altında təqdim edir. Aİ-nin təsisatları o qənaətdən çıxış edirlər ki, “Xarici təsirin şəffaflığı haqqında” qanun Gürcüstanın siyasi oriyentasiyasını Avropadan Rusiyaya doğru dəyişmək məqsədilə qəbul olunub. Halbuki belə bir izahın əsası yoxdur. Gürcüstan hakimiyyəti dəfələrlə bəyan edib ki, oxşar qanunlar həmçinin Fransada, ABŞ-da və digər ölkələrdə də qəbul olunub. Ancaq həmin ölkələrə irad tutulmur, Gürcüstan isə total ittihamlarla üzləşib.

Qərb dairələri həmçinin “Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi” adlı qanuna münasibətdə də eyni kontekstdən çıxış edirlər. Onlar hesab edirlər ki, bu qanun “mətbuat və ifadə azadlığına zid-dir”. Gürcüstan Avropa strukturlarına, o cümlədən, Avropa Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatına (ATƏT), yaxud Avropa Şurasına ona görə üzv olmayıb ki, gəlib burada “LGBT+” hərəkatını, yaxud, “Radikal feminizm”i stimullaşdırsınlar, ailə institutunu dağıtsınlar. ATƏT-ə, AŞ-yə üzv olmaqda məqsəd ölkənin təhlükəsizliyinə təminat almaqdır, demokratik inkişaf yolunda dəstək qazanmaqdır. Bu gün ərazisi param-parça olmuş Gürcüstanın suverenliyinin təmin edilməsi üçün ATƏT və AŞ hansı real addımları atıblar? Avropa institutları “LGBT+” icmasının hüquqlarını qorumaq üçün göstərdikləri qətiyyəti Gürcüstanın ərazi bütövlüyünün, suverenliyinin bərpası məsələsində nə üçün sərgiləmirlər?

Məhz rəsmi Tbilisinin sözügedən iki qanunun qəbul edilməsindən geri çəkilmədiyinə görə ölkə Qərbdən gələn sərt təzyiqlərlə üzləşib. Bu gün Qərb rəsmi Tbilisini sanksiyalarla hədələyir. Bəhs olunan qanunların icrasının dayandırılmayacağı, mövcud siyasi kursun dəyişdirilməyəcəyi təqdirdə Gürcüstanın Aİ-yə gedən yolunun tamam bağlanacağının anonsu edilib.

**Şantaj nəticə vermir**

Gürcüstan hakimiyyətinin milli iradəsinin Qərb dairələri tərəfindən şantaj edilməsi, əlbəttə ki, nəticə vermir. Rəsmi Tbilisi sanksiya hədələrinə rəğmən, götürdüyü siyasi kursu davam etdirəcəyini bildirir və bu istiqamətdə siyasi qərarların verilməsini davam etdirir. Bu günlərdə parlamentin Hüquqi Məsələlər Komitəsində “Gürcü Arzusu” fraksiyası tərəfindən irəli sürülən qanunvericilik təşəbbüsü çərçivəsində “Qrantlar haqqında” və əlaqəli digər qanunlara təklif olunan dəyişikliklər paketinin birinci oxunuşda müzakirə edilərək dəstəklənməsi bunun əyani təsdiqidir.

“Gürcü Arzusu”nun parlamentdə irəli sürdüyü növbəti qanunvericilik təşəbbüsü də milli maraqlara, dövlətçiliyin qorunmasına xidmət edir. Parlamentin yaydığı məlumata görə, dəyişikliklər “qrant” anlayışını genişləndirir və dəqiqləşdirir. Yeni tərifə əsasən, qrant - Gürcüstan hökumətinə, dövlət qurumlarına və ya cəmiyyətin hər hansı bir hissəsinə təsir göstərmək niyyəti və ya inancı ilə həyata keçirilən və ya həyata keçiriləcək fəaliyyətlər üçün istifadə olunan vəsait hesab ediləcək. Bu, həmçinin Gürcüstanın daxili və xarici siyasətinin formalaşdırılması, həyata keçirilməsi və ya dəyişdirilməsinə yönəlmiş, eləcə də xarici dövlətlərin və ya xarici siyasi partiyaların siyasi və ictimai maraqları ilə bağlı fəaliyyətləri əhatə edir. Qrantlar nağd və ya natura formasında ola bilər.

Yeni qanunvericilik paketinə əsasən, siyasi məqsədi olan və bunu açıq şəkildə bəyan edən fiziki və ya hüquqi şəxslər siyasi partiyalarla eyni tələblərə tabe olacaqlar. Bu isə onların xaricdən maliyyə almasını əngəlləyir, hüquqi şəxslərdən ianə qəbulunu məhdudlaşdırır və gəlirlərin qanunla müəyyən olunmuş müddətdə bəyan olunmasını tələb edir.

***Mübariz FEYİZLİ***

# “Arctic Sentry” başladı...

**NATO-nun Əməliyyatlar üzrə Birgə Qüvvələr Komandanlığı Arktika və Uzaq Şimalda müttəfiqlərin hərbi mövcudluğunun koordinasiyasına və gücləndirilməsinə yönəlmiş “Arctic Sentry” missiyasının başladığını elan edib. Yeni missiya NATO ölkələrinin regionda artan fəaliyyətlərini vahid əməliyyat konsepsiyasında birləşdirəcək. Söhbət çoxsahəli təlimlər və əməliyyatlardan, o cümlədən Danimarkanın “Arctic Endurance” təlimlərindən və müttəfiq bölmələrinin artıq gəlməyə başladığı Norveçin qarşıdan gələn “Cold Response” manevrlərindən gedir.**

## Məqsəd Arktikada təhlükəsizliyi artırmaqdır

NATO bəyan edib ki, missiyanın başlanması Rusiyanın hərbi fəallığı və Çinin regiona marağı fonunda alyansın Arktikada təhlükəsizliyə artan diqqətini əks etdirir. Ötən ay Davosdakı görüşdə ABŞ Prezidenti Donald Tramp və NATO-nun Baş katibi Mark Rutte razılaşıblar ki, alyans regionun müdafiəsində daha fəal kollektiv rol oynamalıdır. Missiyaya məsuliyyət zonası artıq bütün Arktika regionunu əhatə edən NATO-nun Norfolkdakı Birgə Qüvvələr Komandanlığı (JFC Norfolk) rəhbərlik edəcək. Alyans həmçinin fəaliyyətlərini NORAD, eləcə də ABŞ-ın Şimal və Avropa komandanlıqları ilə əla-



qələndirmək niyyətindədir.

Məlumdur ki, Arktikada NATO-nun fəallığı ABŞ-ın dünyanın ən böyük adası olan Qrenlandiyaya iddiası fonunda baş verib. Donald Tramp adanı istənilən yolla əldə edəcəklərini bəyan etdikdən sonra Danimarka adaya əlavə hərbi qüvvələr göndərib. Nəzərə alaq ki, Arktika regionu dünya gücləri arasında artan gərginlik fonunda xüsusi strateji əhəmiyyətə malikdir. Ona görə də regionda aviasiyanın, gəmilərin və hərbi qulluqçuların, o cümlədən NATO üzrə müttəfiq ölkələrin mövcudluğu artırılır. Hətta NATO-nun Avropadan olan üzvləri Qrenlandiyada hərbi təlimlər keçirmişdilər. Eyni zamanda, Danimarka Müdafiə Nazirliyinin sözçüsü Tobias Roed Yensen bildirmişdi ki, ABŞ Qrenlandiyanı zorla ilhaq etməyə cəhd edərsə, Danimarka hərbi qulluqçuları Amerika qoşunlarına cavab atəşi açmalıdırlar: “Danimarka hərbi birləşmələri ölkə ərazisini müdafiə etməyə, o cümlədən onun silahlı hücuma məruz qaldığı təqdirdə dərhal müdafiə tədbirləri görməyə borcludur”. Yensen 1952-ci ildən etibarən Qrenlandiya da daxil olmaqla bütün ölkəyə şamil edilən müvafiq Kral fərmanına istinad edib. O qeyd edib ki, fərman Danimarka ordusuna siyasi və ya hərbi liderlərin təlimatlarını gözləmədən hücum halında ölkəni müdafiə etməyə imkan verir.

Yeri gəlmişkən, Danimarkanın digər Avropa tərəfdaşları da ona hərbi dəstək göstərib və Qrenlandiyada keçirilən hərbi təlimlərdə iştirak ediblər. Bu addımlar Danimarkanın NATO-dakı avropalı tərəfdaşlarına çağırışlarından sonra atılıb. Əməliyyat Danimarka tərəfindən koordinasiya edilib, ABŞ-ın rəhbərliyi altındakı NATO strukturları vasitəsilə aparılmayıb. Avropa dövlətlərinin bu addımı Trampı qəzəbləndirdiyi üçün sözügedən 6 ölkəni yüksək tariflərlə hədələmişdi.

Buna baxmayaraq, həmin vaxt Böyük Britaniyanın Baş naziri, Danimarkanın Baş naziri, Avropa Komissiyasının və NATO-nun rəhbərliyi telefon danışığı aparıb. Bildirilib ki, “Yüksək Şimal”ın təhlükəsizliyi Avro-Atlantik maraqların qorunması baxımından bütün NATO müttəfiqləri üçün prioritet hesab olunur. Qeyd edilib ki, NATO müttəfiqlərinin kollektiv təhlükəsizliyi naminə atılan addımlara görə müttəfiqlərə qarşı tariflərin tətbiqi yanlış yanaşmadır. Almaniya Kansleri Fridrix Merts də bəyan edib ki, NATO üzvü olaraq Arktika regionunda təhlükəsizliyin gücləndirilməsini ümumi transatlantik maraq kimi qiymətləndirir və bu istiqamətdə qəti öhdəlik daşıyırıq.

Bütün bunların fonunda ABŞ lideri Tramp NATO-nun Baş katibi Mark Rutte ilə görüşündən sonra 6 ölkəyə yüksək tarif tətbiq etmək fikrindən daşınıb. Ağ Evin rəhbəri alyansın Baş katibi ilə görüşü çox məhsuldar hesab edib və deyib ki, görüşə əsasən, Qrenlandiya və əslində bütün Arktika bölgəsi ilə bağlı gələcək razılaşmanın çərçivəsi formalaşdırılıb. “The Times” qəzeti də öz mənbələrinə istinadən yazıb ki, ABŞ Prezidenti Donald Tramp və NATO-nun Baş katibi Mark Rutte tərəfindən razılaşdırılmış Qrenlandiya ilə bağlı çərçivə sazişi adada ittifaq komandanlıq mərkəzindən tutmuş, Rusiya və Çin investisiyalarının qadağan edilməsinə qədər 5 əsas komponenti əhatə edir. Qəzet bildirir ki, Tramp və Rutte arasında müzakirə edilən sazişdə 1951-ci ildə Vaşinqton və Kopenhagen tərəfindən imzalanmış Qrenlandiya Müdafiə Müqaviləsinin yenilənəcəyi nəzərdə tutulur. Qrenlandiyada hərbi infrastruktur, stansiya və komandanlıq qoşunları yaratmaq azadlığına malik olan ABŞ, hərbi personalı üçün tam muxtariyyət və mütləq toxunulmazlıq əldə edəcək.

Qeyd olunub ki, çərçivə müqaviləsindəki digər vacib məqamlar adada NATO komandanlıq mərkəzinin yaradılması, ABŞ-ın Qrenlandiyanın mineral sərvətlərinə çıxış əldə etmək imkanı,

### Vaşinqton hədəflərinə yaxınlaşır

adada Rusiya və ya Çin investisiyalarına, həmçinin digər layihələrə mane olacaq eksklüziv rejim müqaviləsidir. Nəhayət, ada satışa çıxarılacağı təqdirdə ABŞ-a Qrenlandiyanı əldə etmək üçün birincilik hüququ təmin etmək təklif olunur. Məqalədə deyilir ki, bunun müqabilində ABŞ Avropa ölkələrinə qarşı tariflərdən imtinaya və müqavilənin təfərrüatlarını müzakirə etməyə başlamağa razılaşıb.

Bütün bunların fonunda NATO-nun Əməliyyatlar üzrə Birgə Qüvvələr Komandanlığının Arktika və Uzaq Şimalda “Arctic Sentry” missiyasına başlaması məhz ABŞ-ın mövqeyinin nəticəsidir. Bununla Birləşmiş Ştatlar ərazidə mövcudluğunu daha da gücləndirəcək.

*N.BAYRAMLI*

# Yazılmamış epopeyanın xülasəsi

## Professor Müseyib İlyasovun “Maarif fədaisi: Müseyib İlyasov” adlı kitabı üzərində gəzişmələr

**əvvəli ötən saylarımızda**

Müseyib İlyasovun Ziba xanımdan biri Adilə, o biri Firuzə adlı iki qızı dünyaya gəlmişdi.

Adilə 1920-ci ildə Şuşada doğulmuşdu. 1942-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirəndən sonra ordu zabiti Nikolay Petrovla ailə qurub Rusiyada məskunlaşmışdı. Ərinin işiylə əlaqədar İkinci Dünya müharibəsindən sonra bir neçə il Almaniyada yaşayıb yenidən Rusiyaya qayıtmışdı. Həyat yoldaşı istefaya çıxandan sonra Kalinin (indiki Tver) şəhərinə köçüb, 1995-ci ildə həyata gözlərini yumana qədər orada yaşayıb. Doğmaları, o cümlədən mənim atam imkan, fürsət tapanda qərib bibilərini mütləq ziyarət eləyər, ona vətən payı aparardılar.

Firuzə də 1922-ci ildə Şuşada dünyaya göz açmışdı. Orta təhsilini Bakıdakı 132 nömrəli məktəbdə almışdı. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsini bitirəndən sonra bir sıra sahələrdə, o cümlədən Bakı Plan-İqtisad Texnikumunun direktoru vəzifəsində çalışmışdı. 2009-cu ildə Bakıda dünyasını dəyişib.

Ümumiyyətlə, ataları gedər-gəlməzə yollanandan sonra doğmaları Müseyib əminin (yaşından asılı olmayaraq İlyas uşağının hər bir nümayəndəsi bu gün də onu “Müseyib əmi” deyə yad eləyir) xanımını, qızlarını heç vaxt unutmayıblar. Bununla bağlı müəllif yazır: “Atam əmisinin vəfatından sonra onun ailəsinə imkanı çatdığı qədər həyan olmuş, kömək göstərmişdi. Rusiyanın Kalinin şəhərində yaşayan Adilə ilə müntəzəm məktublaşar, xüsusən payız aylarında ona kənd sovqatı göndərərdi. Ziba nənəylə Firuzə yayda Oğuldərəyə gələr, iki-üç ay bizdə qalıb dincələrdilər. Mən Bakıya köçdüyüm 1977-ci ildən sonra Firuzə mama ilə müntəzəm əlaqə saxlayar, əmoğlu, qardaşoğlu kimi hər həftə ona baş çəkər, atası, əmiləri, keçmiş günlər haqqında xatirələrini dinləyərdim”.

***

Müseyib İlyasovun ömrünün son illəri çox acınacaqlı keçib. Bu vaxt artıq özündən böyük qardaşı Molla Zülfüqar güllələnmişdi, ondan böyük qardaş Mirzə Əli (ulu babamın böyük gəlini Rəhimə nənəm qayınatasının yalı ayaqlarının altına tökülən çal atlardan ibarət ilxısını yaxşı xatırlayırdı; deməsinə görə, kişi o köhlən atlara çox qısqanc yanaşırmış, müştəri çıxana da baha qiymət oxuyurmuş) müflis olmuş vəziyyətdə 1941-ci ildə Bakıya köçüb, atasından sonra hələ otuz il də yaşayası, səhiyyə sahəsində bir çox mühüm vəzifələr tutası həkim oğlu Əhməd İlyasova sığınmış, bir il sonra burada dünyasını dəyişmişdi, Əlidən də böyük Qənbər hələ çarlıq zamanında Kərbəla ziyarətinə gedib geri qayıtmamışdı, orada xəstələnib arzusunda olduğu torpağa qovuşmuşdu.

Göründüyü kimi, İlyas uşağının keçdiyi yollar heç vaxt hamar olmayıb, ulu babalarımız nahaq əcəlin əlindən ta Anadolu yaylasından kiçik Qafqaza qədər köç sürüb ucqar dağlara sığınsalar da, fələyin atdığı oxlardan yenə yayına bilməyiblər. O lənət nəslimizi yüz illərdən bəri izləməkdədir...

Maarif fədaisi Müseyib əfəndinin həyatının son dövrü Bakıdakı 17 nömrəli məktəblə bağlı olub - 1940-



*Müseyib İlyasov Türkiyədə ianə paylayarkən*

cı ilin sentyabr ayından 1941-in sentyabrında həbs olunana qədər o, həmin məktəbdə müəllim işləyib. Bütün xalqımıza olduğu kimi İlyaslar nəslinin genofonduna da ağır zərbələr vurmuş qanlı savaş başlanandan üç ay sonra, sentyabrın 24-də Müseyib İlyasov saxta ittiham əsasında tutulur, 1942-ci ilin 14 fevralında ona səkkiz il həbs cəzası kəsilir. Ancaq həbs müddətini başa vurmaq ona qismət olmur, 1944-cü ilin 12 mayında Müseyib əfəndi Qazaxıstanın Karaqanda şəhərindəki həbsxanada torpağa can borcunu verib qurtulur, fələyin qara yeli daha bir nur çırağını söndürür.

Azərbaycan SSR Ali Məhkəməsinin 4 avqust 1956-cı il tarixli qərarıyla Müseyib İlyasova bəraət verilir. Ömrünü xalqının savadlanmasına, aydınlanmasına həsr eləmiş bir ziyalının, maarif fədaisinin ən böyük mükafatı da elə bu olur.

***

Kitabın “Taleyin acı günləri - 1684 nömrəli məhbus” adlı fəslində müəllif arxivlərdən topladığı materiallar əsasında yazır:

“Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin arxivində saxlanan 2395 nömrəli şəxsi işlə tanışlığım göstərdi ki, 21 sentyabr 1941-ci ildə Müseyib İlyasovun həbs olunması barədə XDİK (Xalq Daxili İşlər Komissarlığı - NKVD) xüsusi (3-cü) siyasi şöbəsinin leytenantı Mişeyev tərəfindən qərar qəbul edilmiş və order yazılmışdır. Üç gün sonra - 24 sentyabr 1941-ci ildə 705 nömrəli orderlə M.İlyasov öz evində həbs edilmişdir. Bibim Firuzə danışırdı ki, evimizdə axtarış apardılar. Əsas üçün heç nə tapa bilməsələr də, atamı apardılar. Əslində axı nə vardı ki, nə də tapıla? Atam dedi ki, bu, nəsə anlaşılmazlıqdır, yəqin tezliklə qayıdar. Lakin belə olmadı, o bir daha qayıtmadı...

Dindirmələr 25 sentyabr 1941-ci ildən başlanıb bir neçə gün davam edir. Ailəsi haqqında verilən suallara cavablarında M.İlyasov həyat yoldaşı Ziba xanımın 47 yaşında, qızları Adilənin 21, Firuzənin isə 19 yaşında olduğunu, atası İbrahimin 1903-cü ildə, anası Pərixanın 1930-cu ildə vəfat etdiyini, üç qardaşından Ağakişinin 80-85 yaşlarında, Balakişinin 75 yaşında, Əlinin 65 yaşında olduğunu, bacısı Aftabın Laçın rayonunun Oğuldərə kəndində yaşadığını, dördüncü qardaşı Zülfüqar İlyasovun isə keçmiş molla olduğunu və 1937-ci ildə XDİK tərəfindən məhkum edildiyini bildirir. Bu dindirmədə nədənsə M.İlyasovun digər bacı-qardaşı Pəricahanla Qənbərin adı protokola düşməyib. Görünür, onlar artıq həyatda olmadıqlarına görə adları da çəkilməyib”.

***

“Yaddaşlarda qalan xatirələr” adlı fəsildə müəllif Müseyib əfəndinin həyatı, fəaliyyətiylə bağlı uzun illərdən bəri topladığı yazılı, şifahi materialların əhəmiyyətli qismini oxucularla bölüşür. Bu bölmədə müəllifin atası Ağakişi oğlu İbrahimin əmisiylə bağlı xatirələri xüsusi yer tutur. Babamın əmisi oğlu, kəndimizin ən müdrik ağsaqqallarından olmuş İbrahim əmini mən yaxşı xatırlayıram - saf yaddaşı, yanımcıl qəlbi, şirin söhbətləri vardı, gənclər onun nəslimizin tarixçəsiylə bağlı danışdıqlarını dinləməkdən doymazdılar.

İbrahim əminin xatirələrindən:

“...Laçında Qəza Maarif Şöbəsinin müdiri işləyən zaman Müseyib əmi başqa bir idarənin müdiriylə nəyə görəsə sözləşir, əmim ona bir şillə vurur. Həmin şəxs şikayət eləyir, iş məhkəməyə düşür. Məhkəmə zalında şikayətçi ilə “müttəhim” yanaşı əyləşirlər. Məhkəmənin qərarıyla Müseyib əmi beş manat cərimə olunur. Hökm oxunan kimi əmim həmin adama möhkəm bir şillə vurur. Zala çaxnaşma düşür, əmim dərhal on manat çıxarıb hakimin masasının üstünə qoyur, ikinci şillənin də pulunu ödədiyini deyir. Hakim söz tapmağa çətinlik çəkir, küsülüləri elə zaldaca barışdırırlar...

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# Aİ Macarıstana “müharibə” elan edir?

Dünyanın aparıcı güc mərkəzlərindən biri olan Avropa İttifaqı (Aİ) qlobal siyasi və iqtisadi arenada ən böyük platformalar sırasındadır. Amma son illər qurum daxilində kəskin ziddiyyətlər açıq şəkildə müşahidə olunur. Bunların sırasında maliyyə siyasətində parçalanma, miqrasiya böhranına yanaşmada fərqli mövqelər, enerji təhlükəsizliyi məsələsində ortaq xəttin tapılmaması, hüquq və demokratiya dəyərlərinə ikili standart yanaşmalar xüsusi yer tutur. Qərb Avropası ölkələri ilə Şərqi Avropa dövlətləri, xüsusilə Macarıstan və Slovakiya arasında yaranan müəyyən fikir ayrılıqları artıq institusional böhran səviyyəsinə yüksəlib. Brüsselin diktə etdiyi qaydaların bəzi üzv dövlətlər tərəfindən qəbul edilməməsi Aİ daxilində həm siyasi, həm də ideoloji uçurum yaradır. Bu isə bəzən Aİ-ni özünün nizamnaməsinə zidd olan addımlar atmağa belə sövq edir. Nəticədə isə qurumun reputasiyası zədələnir, inam, etimad və hüquqi dəyərləndirmə itir. Bütün bunlar Rusiya-Ukrayna müharibəsi fonunda xeyli artıb.

## Orban: Ukrayna ilə strateji tərəfdaşlıq modeli seçilməlidir

Aİ-nin qərarlarına qarşı çıxan əsas ölkələrdən biri Macarıstandır. Macarıstanın Baş naziri Viktor Orban hesab edir ki, Ukrayna böhranı fonunda qəbul edilən qərarların bir çoxu Avropa ölkələrinə zərər vurur. Bugünlərdə isə Orban bəyan edib ki, Avropa İttifaqı və Ukraynanın yeni hərbi planı Macarıstana qarşı müharibə elanıdır. Onun sözlərinə görə, Brüssel elitasının rəsmi nəşri olan “Politico” Aİ və Ukrayna arasında son hərbi planı - “Ukrayna lideri Volodimir Zelenskinin beş maddəlik planı”nı dərc edib. Baş nazir bildirib ki, Brüssel Ukraynanın 2027-ci ildə Aİ-yə qəbul ediləcəyinə qərar verib. “Bu yeni plan Macarıstana qarşı açıq müharibə elanı deməkdir. Onlar macar xalqının qərarını qulaqardına vururlar və Macarıstan hökumətini istənilən vasitə ilə devirmək istəyirlər”, - deyən Baş nazir Viktor Orbanın fikrincə, Avropa Ukraynanın Avropa İttifaqına üzvlüyünü sürətləndirmək əvəzinə, onunla strateji tərəfdaşlıq modelini seçməlidir: “Ukraynanın Aİ-yə qəbulu Avropanı müharibəyə sürükləyəcək. Biz əməkdaşlığa qarşı deyilik, lakin üzvlük səhv yoldur. Üzvlük yox, strateji tərəfdaşlıq məsuliyyətli seçimdir”.

O, əlavə edib ki, Brüssel və Kiyev Macarıstanda müxalif Tisa partiyasının hakimiyyətə gəlməsini istəyir, çünki o, Avropa İttifaqının qərarlarına müqavimət göstərməyəcək. Seçkilərə gəlincə, Macarıstanda aprel ayında keçiriləcək parlament seçkiləri ərəfəsində siyasi partiyalar fəallaşıb. Həm hakim FİDES partiyası, həm də müxalif qüvvələr ölkə üzrə intensiv kampaniya mərhələsinə daxil olub, seçicilərlə görüşlərin, regional səfərlərin və ictimai tədbirlərin sayı xeyli artıb.

## Viktor Orban hesab edir ki, Brüssel parlament seçkilərində FİDES partiyasının uduzmasına çalışır

Son rəy sorğularının nəticələrinə görə, Baş nazir Viktor Orbanın rəhbərlik etdiyi FİDES partiyası əsasən ölkənin əyalət və kənd bölgələrində güclü dəstəyə malikdir. Məhz bu regionlarda seçicilər hakim partiyanın sosial siyasətini, milli maraqlara əsaslanan xəttini və sabitlik mesajlarını üstün tutur. Bununla yanaşı, iri şəhərlərdə, xüsusilə Budapeştdə və böyük sənaye mərkəzlərində müxalif qüvvələrin mövqeləri nisbətən güclənib. Sosioloji tədqiqatlar göstərir ki, şəhər seçiciləri daha çox iqtisadi islahatlar, korrupsiya ilə mübarizə və Avropa İttifaqı ilə münasibətlər mövzusuna diqqət yetirir. Analitiklərin fikrincə, seçkilərin nəticəsi regionlar və böyük şəhərlər arasındakı bu siyasi fərqin hansı tərəfin xeyrinə dəyişəcəyindən asılı olacaq. Təbii ki, Brüssel seçkilərdə müxalifətin qalib gəlməsində maraqlıdır.

Lakin Orban Brüsselin bu niyyəti ilə barışmaq fikrində deyil. Baş nazir hakim FİDES partiyasının Budapeşt Konqres Mərkəzində Yerli Özünüidarəetmələrin Milli Forumunda çıxış edərək qarşıdan gələn seçkilərdə tərəfdarların səfərbər edilməsinin əsas vəzifə olduğunu vurğulayıb. O bildirib ki, hakim “FİDES-KDNP” koalisiyası seçicilərin əksəriyyətinə malikdir, lakin həlledici amil yerli liderlərin və fəalların kampaniyaya qoşulması, insanları seçki məntəqələrinə gətirmək istəyi olacaq. “Əgər bu mübarizəyə qoşulsanız, biz qalib gələcəyik, əks halda məğlub olacağıq”, - deyə Baş nazir bildirib.



## Macarıstan Rusiyaya qarşı sanksiyaların əleyhinədir

Brüsselin Macarıstan hakimiyyətinə qarşı mənfi münasibətinin əsas səbbələrindən biri də Orban administrasiyasının Rusiyaya qarşı əlavə sanksiyaların tətbiqinə qarşı çıxmasıdır. Xatırladaq ki, yanvarın 26-da Avropa İttifaqı Şurası Rusiya qazının idxalını qadağan edən qaydalar barədə razılığa gəlib. Razılaşmaya əsasən, maye qazın idxalına qadağa 2027-ci ilin əvvəlində, boru kəməri ilə tədarük olunan təbii qazın idxalına qadağa isə 2027-ci ilin payızında qüvvəyə minəcək. Brüssel bunun Rusiyanın enerji resurslarından asılılığa son qoymaq məqsədi daşıdığını vurğulayıb. Slovakiya və Macarıstan isə öz növbəsində Rusiya qazının idxalını qadağan edən qərarla bağlı Avropa Məhkəməsinə şikayət etmək niyyətində olduğunu bildirib.

Məsələ ilə bağlı Viktor Orban deyib ki, Macarıstan öz milli maraqlarını müdafiə etmək, xüsusilə Rusiyadan neft və qaz idxalına qoyulan qadağaya qarşı mübarizə aparmaq niyyətindədir: “Biz Rusiyadan neft və qaz idxalına qadağa qoyulmasına icazə verməyəcəyik. Əks halda ucuz enerji resursları əlçatan olmayacaq və kommunal xərclər azalmayacaq”.

*Nardar BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**







# Radionun həyatımızdakı rolu

**Texnologiyanın sürətlə inkişaf etdiyi, informasiyanın saniyələr içində yayıldığı bir dövrdə yaşayırıq. Sosial şəbəkələr, televiziya və internet həyatımızın ayrılmaz hissəsinə çevrilib. Lakin bütün bu yeniliklərin fonunda bir ünsiyyət vasitəsi var ki, illər keçsə də öz dəyərini və təsir gücünü itirmir. Radio hələ də məşhur yayım orqanı vasitəsi olaraq yerini qorumaqdadır. Bu kütləvi informasiya vasitəsi bir əsrdən artıqdır ki, insanların məişətinə daxil olmaqla bərabər, onların həyat tərzində mühüm rol oynayır. Eyni zamanda, radio bir rabitə sistemi kimi fövqəladə hallarda geniş və əvəzsiz imkanlara malikdir. Bundan başqa, radio həm də dilimizin təbliğat tribunasıdır. Elektron mediumlar arasında ən köhnəsi olan radionun-“qulaq dostumuzun” yaranmasının uzun bir tarixi var. Hazırda gördüyümüz, daha doğrusu, dinlədiyimiz radionun ərsəyə gəlməsi 1894-cü ilə gedib çıxır. Yeri gəlmişkən, bu gün Dünya Radio Günüdür. Bu günün təsis edilməsi barədə qərar UNESCO-ya üzv dövlətlər tərəfindən 2011-ci ildə qəbul olunub. 2012-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası fevralın 13-nü Dünya Radio Günü elan edib. Həmin tarixin seçilməsi təsadüfi deyil. Belə ki, 1946-cı il fevralın 13-də BMT-nin mənzil-qərargahında BMT radiosu ilk dəfə efirə çıxıb. Radio təkcə texniki vasitə kimi deyil, eyni zamanda, demokratik müzakirənin formalaşması və möhkəmlənməsinin baş verdiyi informasiya məkanıdır. Bu gün bütün radio dinləyiciləri, audiovizual mütəxəssislər və yayımçılar təkcə radionun xüsusiyyətlərinə hörmətlə yanaşmağa deyil, həm də onun sülhü təşviq etmək üçün unikal alətə çevrilməsinə töhfə verməyə dəvət edilir.**

## Radio necə yaranıb?

Radionun tarix meydanına çıxması üçün səsin yazılıb-yenidən canlandırılması, bundan daha önəmlisi isə fəzada mövcud olan elektromaqnit dalğalarının tapılıb bəşəriyyətin ixtiyarına verilməsi zəruri idi. Səsyazmanın tarixi 13-cü əsrdə-Almaniyada qraf “Böyük Albert”lə başlasa da, sonralar Fransa (J.Dyuqamel və L.Skot), Böyük Britaniya (T.Yunq) və Rusiyada (A.Krotsenşteyn) davam etdirilsə də proses 19-cu əsrdə ABŞ-da sona çatdı. Məşhur ixtiraçı T. Edison davamlı sınaqlardan sonra 1877-ci ilin dekabrında düzəltdiyi fonoqrafın qarşısında həyəcanla “Meri və onun körpə quzusu” adlı uşaq şeirini söyləyir. Bir dəqiqədən sonra ixtiraçının köməkçisi C.Krues heyrət içində aparatın həmin şeiri anlaşılmaz şəkildə təkrar etdiyini eşi-



dir. Beləliklə, səsin dəqiq yazılması və onun yenidən eşidilməsi kəşf olunur, lakin bu, radionun kəşfi demək deyildi. Bundan əvvəl teleqrafın (1837), Morze əlifbasının (1843), telefonun (1876) və səsin telefonla ötürülməsinin (1880) kəşfi də hələ radionun ixtirasını yaxınlaşdırmırdı. Bunun üçün fəzadakı elektromaqnit dalğaları kəşf olunmalı, bu dalğaların axını insanın iradə və istəyinə tabe edilməli, məlumatı naqilsiz, yəni elektromaqnit dalğaları ilə uzağa ötürmək üsulu meydana çıxmalı idi.

## Kəşf kimindir: Markoni, yoxsa Popov?

Radionun kəşfi 1894-cü ildə italiyalı mühəndis, radiotexnik Qulyelmo Markoniyə nəsib olur. Uzaq məsafəyə hava dalğaları ilə simsiz xəbər göndərmək marağını təmin etmək üçün Boloniyadakı evinin damında inadla təcrübələr aparan ixtiraçı nəhayət, öz istəyinə çatır.

Markoni hələ məktəbliykən beynindən çoxlu ixtiralar etmək istəyi keçirdi. 20 yaşında olarkən elektromaqnit dalğaları haqqında oxuduğu bir yazı onu çox cəlb etdiyindən gənc mühəndis eksperimentlərə başladı. O, xəyali olanları praktikada tətbiq etmək qərarına gəldi. Markoninin valideynləri övladlarının çox xərc aparan eksperimentləri üçün pullarını əsirgəmədilər. Maraq, bilik və praktik bacarıq 20 yaşlı bu gənci bütün Avropada məşhurlaşdırdı. İtaliyada yaşayan Markoni 21 yaşında İngiltərəyə köçdü və orada naqilsiz rabitə şirkəti yaratdı.

Q.Markoni ilə təxminən eyni vaxtda, 1895-ci ildə rus mühəndisi Aleksandr Popov da elektromaqnit dalğaları kəşf etmiş və onun tapıntısı dərhal təcrübədə sınaqdan keçirilmişdi. Elektromaqnit dalğaların mövcudluğunu göstərməyin daha həssas və etibarlı üsulunu tapan A.Popov bu dalğaları bilavasitə qeydə alan “Kogerer” adlı ölçü cihazı da düzəltmişdi. 1900-cü ilin sərt qışında Finlandiyada - Laven-saari gölündə qəzaya uğramış balıqçıların xilas edilməsində A.Popovun təklif etdiyi bu cihaz radioteleqraf kimi mühüm rol oynadı və bundan sonra rus mühəndisin ixtirasına diqqət xeyli artdı. Son dövrlərdə, yəni dünya elmi ilə təmaslar artdıqca, o cümlədən radionun tarixi ilə bağlı dəqiq bilgilər çoxaldıqca Rusiya alimləri yanlış olaraq “radionu kim kəşf edib? Markoni, yoxsa Popov?” dilemmasını ortaya atmağa çalışırlar. Əlbəttə, radionun inkişafında A.Popovun xidmətləri danılmazdır. Amma dünya radionun banisi kimi Markonini tanıyır. Bu sahədə A.Popovun ixtiraları da danılmır. Məsələn, son dövrün bir çox sorğu kitablarının səhifələrində Markoni və Papov “barışdırılır”.

Zaman dəyişir, texnologiyalar yenilənir. Lakin radionun səsi hələ də həyatımızın fonunda səslənməkdədir. Çünki radio sadəcə informasiya vasitəsi deyil, o, tarixdir, mədəniyyətdir, dostluqdur və ünsiyyətdir. Radionun əhəmiyyəti də məhz bu çoxşaxəli və əvəzolunmaz rolunda öz əksini tapır.

*Yeganə BAYRAMOVA*

# Qızılca təhlükəsi yenə qalır!

## ÜST və UNICEF-dən mühüm xəbərdarlıq...

Bir çoxları qızılcanı keçmişdə qalmış, artıq təhlükə yaratmayan bir xəstəlik kimi düşünür. Halbuki qızılca bu gün də dünyada ən yoluxucu virus xəstəliklərindən biri olaraq qalır.

Qızılca hava-damcı yolu ilə yayılan kəskin virus infeksiyasıdır. Xəstə insan öskürəndə və ya asqıranda virus havaya yayılır və otaqda saatlarla aktiv qala bilər. Yoluxuculuq səviyyəsi o qədər yüksəkdir ki, peyvənd olunmamış şəxslərin böyük əksəriyyəti virusla təmasdan sonra xəstələnir.

**Əlamətləri necə başlayır?**

Qızılca adətən yüksək hərarət, halsızlıq, quru öskürək, burun axması və gözlərin qızarması ilə başlayır. Bir neçə gündən sonra ağız boşluğunda xırda ağ ləkələr (Koplik ləkələri) görünə bilər. Daha sonra isə üzdən başlayaraq bütün bədənə yayılan xarakterik qırmızı səpkilər əmələ gəlir.



## Yeni epidemiya təhlükəsi qalmaqdadır...

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regionundakı 53 ölkədən aldığı ilkin məlumatlara görə, 2025-ci ildə Avropa və Mərkəzi Asiyada qızılca xəstəliyinə yoluxma hallarının sayı 2024-cü illə müqayisədə xeyli azalıb. Lakin Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xəbərdarlıq edir ki, yeni epidemiya təhlükəsi qalmaqdadır.

2025-ci ildə regionda 33 min 998 qızılca xəstəliyi qeydə alınıb ki, bu da əvvəlki illə müqayisədə təxminən 75 faiz azdır. Bu azalma həm xüsusi tədbirlərin həyata keçirilməsi, həm də həssas şəxslərin sayının tədricən azalması ilə əlaqədardır. Çünki peyvənd nisbəti aşağı olan ərazilərdə bir çox insan artıq infeksiyaya yoluxmuşdu.

ÜST-nin regional direktoru Hans Klyuge qeyd edib ki, son üç ildə regionda 200 mindən çox insan qızılca xəstəliyinə yoluxub. Ümidverici tendensiyalara baxmayaraq, 2025-ci il rəqəmləri hələ də 2000-ci ildən bəri əksər illərdə müşahidə olunan göstəriciləri üstələyir. Bəzi ölkələrdə yoluxma hallarının sayı 2024-cü ildəki ilə müqayisədə daha çox olub. Qızılca halları 2026-cı ildə də qeydə alınmağa davam edəcək. Lakin bu halların çoxunun qarşısını daha geniş yayılmış immunizasiya və sürətli epidemiya reaksiyası ilə almaq olar.

Qızılca uzun illər boyu Azərbaycanda ən geniş yayılmış yoluxucu xəstəliklərdən biri olub. Xüsusilə, peyvəndləmə proqramlarının geniş tətbiqindən əvvəl demək olar ki, hər ailə bu xəstəliklə qarşılaşırdı. Son onilliklərdə peyvənd sayəsində yoluxma halları kəskin azalsa da, qızılca tamamilə aradan qalxmayıb və müəyyən dövrlərdə yenidən artım müşahidə oluna bilər. Bu isə onu göstərir ki, təhlükə hələ də qalmaqdadır.

## Xəstəliyin 15-17-ci günlərində...

V.Cavadzadə qeyd edib ki, sağlam bir insanın yoluxmuş şəxsin istifadə etdiyi dəsmal, paltar, boşqab, bıçaq və ya oyuncaq kimi əşyalara toxunması böyük riskdir: “Sağlam insan da bu əşyalara toxunduqdan sonra əllərini sabunlamadan ağzına, burnuna və ya gözünə qoyarsa, yoluxa bilər. Qızılca virusu sağlam insana çatdıqda, insanın boğazı ilə burnunun qovuşduğu hissəyə daxil olur və bölgədəki limfa düyünlərinə çatır.

Oradan qan dövranı sistemi vasitəsilə bütün bədənə yayılır. Müxtəlif orqanlarda hüceyrə sistemlərinə daxil olaraq çoxalmağa davam edir. Xəstəliyin 15-17-ci günlərində viral və immun sisteminin reaksiyası virusun çoxalmasını dayandırır və xəstəlik nəzarət altına alınır.

## Simptomlar hansılardır?

Mövzu barədə “Yeni Azərbaycan”a danışan infeksionist-həkim Vüqar Cavadzadə bildirib ki, xəstəliyin ilk əlamətləri qızılca virusu insana keçdikdən təxminən 8-12 gün sonra görünür. Onun sözlərinə görə, bu simptomlar çox vaxt sadə yuxarı tənəffüs yollarının infeksiyasına bənzəyir: “Burun axması, öskürək, asqırma, halsızlıq, yorğunluq, yüksək hərarət, boğaz ağrısı, ağızda, diş ətlərinin ətrafında, yanaqların içərisində xırda boz rəngli ləkələr olur. 1-3-cü günlərdə işığa qarşı həssaslıq kimi əlamətlər arasında görülən xəstəliyin 4-8-ci günlərində hərarət 39-41 dərəcə arasında dəyişir.

Qulaq və boyun arxasında bir töküntü başlayır. Bu səpkilər əvvəlcə üzə, gövdəyə, sonra isə qol və ayaqlara yayılır. Qızılcada səpgi qırmızı və qəhvəyi rəngdədir, düz formada və dəri səthində yüngül şişkinlik olur. Bütün bədənə yayılan səpgilər təxminən 4 gün davam edir. Daha sonra, yüngül bir solma ilə, baş nahiyəsindən aşağı solur və yox olur. Səpkilərin yox olması ilə insanın hərarəti də aşağı düşür. Ancaq xəstəliyin səbəb olduğu öskürək təxminən 10 gün davam edir”.

## Qızılcanın qarşısını almaq olarmı?

İnfeksionist vurğulayıb ki, qızılcadan qorunmağın ən təhlükəsiz və təsirli yolu peyvənd olunmaqdır: “Qızılca peyvəndinin birinci dozasından sonra qorunma dərəcəsi 93 faizə, ikinci dozadan sonra isə 97 faizə yüksəlir. Qızılca xəstəliyinin yayılmasının qarşısını almaq üçün yoluxmuş şəxsin sosial təcrid olunması və sağlam insanlardan uzaq durması tövsiyə olunur. Qızılca üçün ən böyük risk faktoru peyvənd olunmamaqdır. Eyni zamanda, qızılca xəstəliyinin yayıldığı ölkələrə səyahət etmək tövsiyə edilmir.

## Xüsusilə 1 yaşa qədər uşaqlar...

İnfeksionist qeyd edib ki, 5 gündən çox davam edən yüksək hərarət qızılca səbəbiylə pnevmoniya və ya otitis kimi müxtəlif ağırlaşmaların inkişaf etdiyini göstərə bilər: “Qızılca hallarında təxminən 30 faizdə bir və ya daha çox ağırlaşma inkişaf edir. Xüsusilə 1 yaşa qədər uşaqlarda və peyvənd olunmamış böyüklərdə ağırlaşma riski xeyli yüksəkdir. Qızılca, həmçinin ishal, korluq və beyin iltihabı kimi xəstəliklərə yol aça bilər”.

## Peyvənd nə vaxt edilməlidir?

Həkim bildirib ki, qızılcadan qorunmağın ən təsirli yolu hesab edilən peyvənd uşaqlıq dövründə müntəzəm olaraq aparılır: “2 dozada verilən qızılca peyvəndi uşaq 9 aylıq olanda vurulur. İkinci doza 4-6 yaş arasında tətbiq olunur. Bu vaxtdan əvvəl peyvəndin ikinci dozası tövsiyə edilməsə də, uşağın bu yaş aralığından əvvəl qızılca riski olan bölgələrə səyahət etməsi lazımdırsa, ikinci doza daha əvvəl verilə bilər. Əvvəllər peyvənd olunmamış, immuniteti olmayan və ya peyvənd olunacağına əmin olmayan insanlar da qızılca peyvəndini 2 dozada ala bilərlər”.

## Digər müalicə üsulları...

İnfeksionistin sözlərinə görə, qızılcanın profilaktik müalicəsi olsa da, xəstəliyin qəti bir müalicə üsulu yoxdur: “Bununla belə həkim xəstəliyə görə qızdırmanı idarə etmək üçün bəzi dərmanlar təyin edə bilər. Vitamin A əlavəsi də xəstəliklə əlaqəli simptomların şiddətini azaltmaqda təsirli olur. Buna görə də, həkim xəstənin mövcud vəziyyətinə uyğun olaraq müxtəlif dərmanların istifadəsini tövsiyə edə bilər”.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4768
Sifariş: 217
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova